RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 204 (8227) ÇƏRŞƏNBƏ AXŞAMI, 17 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham ƏLİYEV: “Bizim əsas məqsədimiz ondan ibarətdir ki, xalqımız razı olsun, uşaqlar gözəl məktəblərdə oxusunlar”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 16-da Bakının Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, təhsil müəssisəsinin direktoru İradə Xəlilova görülən işlərlə bağlı dövlət başçısına məlumat verdi.

Bildirildi ki, məktəbin yeni tədris kompleksində ən müasir şərait yaradılıb. Burada şagirdlər müxtəlif laboratoriyalarda əyani təlimlər keçərək biliklərini artıra, idman zalında idmanın müxtəlif növləri ilə məşğul ola biləcəklər.

Bu təhsil ocağının binası 1932-ci ildə tikilib. O zaman məktəb 400 şagird yerlik olub. Hazırda isə burada yeni istifadəyə verilən tədris kompleksi ilə birlikdə ümumilikdə 1944 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 138 müəllim heyəti məşğul olur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni tədris kompleksinin idman zalında, hərbi otaqda, ekosinifdə, informatika otağında, kimya kabinetində, ayrı-ayrı sinif otaqlarında və yeməkxanada yaradılan şəraitlə tanış oldular, müəllimlər və şagirdlərlə söhbət etdilər, onlara yeni tədris ilində uğurlar arzuladılar.

Məlumat verildi ki, ötən tədris ilində bu təhsil müəssisəsini bitirən məzunların 77 faizi ali məktəblərə qəbul olub. Ümumilikdə hər il bu məktəbin məzunlarının arasında 600-dan çox bal toplayan və ölkəmizin ali təhsil ocaqları ilə yanaşı, xarici dövlətlərin nüfuzlu universitetlərinə də qəbul olan məzunlar var. Məktəbin şagirdləri bir çox bilik, idman yarışlarında, olimpiadalarda müxtəlif medallar qazanaraq, təhsil ocağını layiqincə təmsil ediblər. Yeni təhsil kompleksi bu uğurların daha da artmasına imkan verəcək. Çünki burada şagirdlər geniş, işıqlı, hər cür zəruri tədris avadanlığı ilə təchiz olunan otaqlarda elmin sirlərinə yiyələnə, müəllimlər isə müasir şəraitdə şagirdlərə dərs deyə biləcəklər.

Hər bir dövlətin inkişafı və gələcəyi onun təhsil səviyyəsi ilə bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə bu cür qısa müddət ərzində bu sayda məktəb tikilməyib. Bu istiqamətdə atılan addımlara Heydər Əliyev Fondunun töhfələri də olduqca mühümdür. Fondun bu sahədə həyata keçirdiyi layihələrin coğrafiyası və miqyası ilbəil daha da genişlənir.

Məktəbdə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müəllimlər və valideynlərlə görüşüb onları təbrik etdilər.

**Birinci sinif şagirdinin nənəsi Fəridə Hüseynova:** Əziz Prezidentimiz, hörmətli Mehriban xanım, sizi burada görməyimizə çox şadıq. Mənim nəvəm də bu məktəbin birinci sinfinə qəbul olub. Mən öz adımdan, valideynlər adından Sizə təşəkkür edirəm ki, övladlarımıza bu cür gözəl şərait yaratmısınız. Allah Sizin canınızı sağ, ömrünüzü uzun eləsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən də çox şadam ki, uşaqlar yeni dərs ilini yeni məktəbdə başlayırlar. Müəllimlərin də iş yeridir. Valideynlər də, uşaqlar da, müəllimlər də razıdırlar. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, xalqımız razı olsun, xalqımızın yaşayış səviyyəsi gündən-günə qalxsın, uşaqlar gözəl məktəblərdə oxusunlar.

Son illərdə məktəb tikintisi istiqamətində çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, son illərdə həm Bakı şəhərində, həm bütün bölgələrdə 3200-dən çox məktəb tikilib və ya təmir olunub. Bu il 80-dən çox məktəb yenidən tikiləcək və hələ də təmirsiz olan məktəblərdə gələcək illərdə mütləq təmir işləri aparılacaq.

*Ardı 2-ci səh.*

## Azərbaycan-Türkiyə tərəfdaşlığı son illərdə daha da möhkəmlənib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək əməkdaşlığımızın bütün sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev yüksək səviyyəli siyasi əlaqələrə uyğun olaraq iqtisadi əməkdaşlığımızın da hərtərəfli inkişaf etdiyini dedi. Azərbaycan-Türkiyə tərəfdaşlığının son illərdə daha da möhkəmləndiyini bildirən dövlət başçısı ölkələrimizin həyata keçirdiyi birgə irimiqyaslı layihələrin, xüsusilə enerji sahəsi ilə bağlı layihələrin bölgə üçün böyük önəm daşıdığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda Türkiyənin xeyli sayda orta və kiçik müəssisələrinin fəaliyyətinin də iqtisadi əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyini dedi və ticarət dövriyyəsinin 20 faizdən çox artaraq 3 milyard dollardan çox həcmə çatmasından məmnunluğunu ifadə etdi. Dövlət başçısı Bakıda keçirilən hökumətlərarası komissiyanın səmərəli nəticələr verəcəyinə əminliyini ifadə etdi və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Vitse-prezident Fuat Oktay, ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimizin dövlət başçıları arasında olan dostluq münasibətlərinin əlaqələrimizin inkişafındakı rolunu xüsusi qeyd etdi. Vitse-prezident Fuat Oktay Bakının işğaldan azad edilməsinin 101-ci ildönümü münasibətilə təbriklərini çatdırdı və paytaxtımızın daha da gözəlləşdiyini qeyd edərək Azərbaycanın bundan sonra da inkişaf yolunda olacağına əminliyini ifadə etdi.

Türkiyə vətəndaşlarına münasibətdə viza rəsmiləşdirilməsi tələbinin aradan qaldırılmasına görə təşəkkürünü ifadə edən qonaq bunun iki ölkə arasında turizm və biznes sahəsində əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyini bildirdi.

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə əlaqədar qəti və birmənalı mövqeyinin olduğunu xatırladaraq, bu mövqeyin bütün beynəlxalq səviyyələrdə davamlı olaraq ifadə edildiyini diqqətə çatdırdı.

Dövlət başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## Birinci vitse-prezident Mehriban Əliyeva şagird və tələbələri Bilik Günü münasibətilə təbrik edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva şagird və tələbələri 15 sentyabr - Bilik Günü münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikin mətni birinci xanımın rəsmi “Instagram” səhifəsində paylaşılıb.

“Əziz məktəblilər, tələbələr. Hörmətli müəllimlər və valideynlər.

Sizi bu əziz, sevimli bayram - Bilik Günü münasibətilə təbrik edirəm.

Bu, yeni dərs ilinin, böyük, məsuliyyətli və çox maraqlı işin başlanğıcıdır. Qoy yeni dərs ili sizə təhsilinizdə böyük uğurlar, maraqlı görüşlər və ixtiralar gətirsin, hər bir məktəbli, tələbə və müəllim üçün uğurlu və məhsuldar olsun. Sizə xoşbəxtlik, möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzulayıram.



Əziz dostlar, Bilik Gününüz mübarək!” deyə təbrikdə bildirilir.

## Bakı bədii gimnastika üzrə 37-ci dünya çempionatına evsahibliyi edir

### 61 ölkədən 300 gimnast 9 dəst medal uğrunda mübarizə aparır

Sentyabrın 16-da Bakıda, Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva və ailə üzvləri açılış mərasiminə baxıblar.

Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova da açılış mərasimində olub.

Mərasimdə əvvəlcə iştirakçı ölkələrin dövlət bayraqları təqdim edildi.



Açılış mərasimində çıxış edən Azərbaycanın Gənclər və İdman naziri **Azad RƏHİMOV** dedi:

- Hörmətli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Hörmətli Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva.

Hörmətli Beynəlxalq Gimnastika Federasiyasının prezidenti cənab Morinari Vatanabe.

Beynəlxalq aləmdə idman tədbirlərinin yüksək səviyyəli təşkilatçısı kimi tanınan Azərbaycanda bu gün daha bir nüfuzlu idman yarışı keçirilir. On dörd ildən sonra Azərbaycan bədii gimnastika üzrə 37-ci dünya çempionatına evsahibliyi edir.

*Ardı 3-cü səh.*

## Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 16-dan Müdafiə nazirinin rəhbərliyi ilə Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qisimləri, hərbi birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.

*Ardı 7-ci səh.*



# İlham ƏLİYEV: “Bizim əsas məqsədimiz ondan ibarətdir ki, xalqımız razı olsun, uşaqlar gözəl məktəblərdə oxusunlar”

*Əvvəli 1-ci səh.*

Bu məktəb doğrudan da göz oxşayır. Bütün lazımi şərait yaradılıb, avadanlıqlarla təchiz edilib. Mənə verilən məlumata görə, məktəbin əvvəlki vəziyyəti çox acınacaqlı idi. Yəni burada müəllimlər üçün də böyük çətinliklər var idi, uşaqlar da təmirsiz, yararsız vəziyyətdə olan məktəbdə oxuyurdular. İndi bu şərait yaradıldı. Amma bu, işin bir hissəsidir. Əlbəttə, əsas məsələ odur ki, gözəl şəraitlə bərabər, təhsilin səviyyəsi yüksək olsun və burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tuta bilsinlər. Ona görə təhsilin səviyyəsinin qaldırılması bu gün gündəlikdə duran vacib məsələlərdəndir və bu istiqamətdə də nəticələr var.

Onu da bildirməliyəm ki, son illərdə müəllim peşəsini seçənlərin sayı artır. Müəllim Azərbaycanda həmişə çox hörmətli peşə olub. Həmişə müəllimə böyük hörmət olub. Bu gün isə bu, daha da yüksək səviyyədədir. Müəllimlərin əməkhaqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması bu nəticəyə gətirib çıxarır ki, müəllim olmaq istəyənlərin sayı əvvəlki illərlə müqayisədə böyük dərəcədə artıb. Bir daha uşaqları, valideynləri, müəllimləri yeni məktəbin tikintisi ilə əlaqədar təbrik edirəm.

**Məktəbin kimya müəllimi Yaqut Mönsümova:** Möhtərəm Prezident, icazə verin, mən də kollektivimiz adından Sizə minnətdarlığımızı çatdırım. Sözün düzü, minnətdarlığımızı çatdırmaq üçün söz tapa bilmirik. Cənab Prezident, yeni məktəblər tikirsiniz, təmir etdirirsiniz. Bu, təhsilə olan münasibətdir. Bu, dövlətə olan münasibətdir. Sizin tapşırığınıza əsasən tikilmiş bu yeni məktəb binası “Bilik Günü”ndə bizə ən gözəl hədiyyədir. Biz hər zaman Sizin qayğınızı hiss edirik. Belə gözəl, möhtəşəm məktəb binasının istifadəyə verilməsi biz müəllimləri ürəkdən sevindirir, daha yaxşı işləməyə həvəsləndirir, məsuliyyətimizi daha da artırır. Mən məktəbimizdəki kimya laboratoriyasını, kabinetləri gördüm. Düzü əvvəllər belə laboratoriyaları, kabinetləri biz ancaq filmlərdə görürdük. İndi bu, Azərbaycanın reallığıdır.

Bilirik, dünyada bir çox münaqişələr, problemlər baş verir. Azərbaycanımızda Sizin sayənizdə sabitlikdir, əmin-amanlıqdır. Bu, Sizin uzaqgörən siyasətinizin nəticəsidir. Əldə olunan uğurlarda əzizimiz, çox hörmətli Mehriban xanımın da böyük xidmətləri var. Mehriban xanım, biz Sizi dünyalar qədər sevirik, sevgimizi çatdırmaq üçün sözlər acizdir. Bir daha çox sağ olun ki, dəyərli vaxtınızı ayırıb bizimlə görüşə gəlmisiniz.

Cənab Prezident, bu gözəl məktəbə, ümumiyyətlə, gördüyünüz bütün işlərə görə Sizə kollektivimiz adından minnətdarlığımızı bildiririk. Allah Sizi, əzizimiz Mehriban xanımı, bütün ailənizi qorusun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Xoş sözlərə görə təşəkkür edirəm. Sizə bir daha uğurlar arzulayıram, sizi bir daha təbrik edirəm. Əminəm ki, burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tutacaqlar və dövlətimiz, xalqımız üçün böyük işlər görəcəklər, bizim ümumi inkişafımıza öz töhfələrini verəcəklər.

Sonda xatirə şəkli çəkdirildi.











# Komandamız 7-ci arena polo üzrə dünya kubokunun qalibi olub






Sentyabrın 15-də Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Bakıda baş tutan 7-ci arena polo üzrə dünya kubokunun final görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, final görüşünə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev, Milli Olimpiya Komitəsinin Baş katibinin müavini və Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev, Dünya Polo Federasiyasının prezidenti Reto Qaudenzi və digər qonaqlar baxıblar.

Turnirin həlledici görüşündə Azərbaycanın “Elite Horse & Polo Club Baku” və Almaniyanın “Los Nocheros Polo Club Münster” komandaları qarşılaşıblar. Bu dəfə də yüksək ustalıq nümayiş etdirən komandamız final görüşündən qalib ayrılıb - 15:4. Komandamızın heyətində Elçin Camallı (9), Tərlan Qurbanəliyev (4), Rəşad Həsənov və Namiq Orucov fərqləniblər.

Beləliklə, Azərbaycanın “Elite Horse & Polo Club Baku” komandası turnirin qalibi adını qazanıb. “Los Nocheros Polo Club Münster” ikinci, İsveçrənin “Evviva Polo Club St. Moritz” komandası üçüncü, Rusiyanın “Planernaya Polo Club Moscow” komandası isə dördüncü yeri tutublar. Daha sonra dünya kubokunun qalibi olan komandamız mükafatlandırılıb. Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev qalib olan komandamıza turnirin kubokunu və qiymətli hədiyyələr təqdim edib. Turnirin ən yaxşı oyunçusu komandamızın poloçusu Elçin Camallı seçilib. Turnirin bütün oyunları “Elite Horse and Polo Club”un meydançasında keçirilib.

Qeyd edək ki, gələn il sentyabrın 10-dan 20-dək 8 komandanın iştirak edəcəyi polo üzrə Avropa çempionatı da Azərbaycanda təşkil olunacaq.

# Bakı bədii gimnastika üzrə 37-ci dünya çempionatına evsahibliyi edir

## 61 ölkədən 300 gimnast 9 dəst medal uğrunda mübarizə aparır





*Əvvəli 1-ci səh.*

2014-cü ildə istifadəyə verilən bu möhtəşəm arena dövlət başçısı İlham Əliyevin ümumilikdə idmana göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Gimnastika növləri üzrə Bakıda dünya kubokları, Avropa və dünya çempionatları yüksək səviyyədə keçirilir. Azərbaycan Gimnastika Federasiyası ardıcıl olaraq iki il dünyanın ən yaxşı federasiyası adına layiq görülüb. Təsadüfi deyil ki, Beynəlxalq Gimnastika Federasiyası bu mötəbər yarışın təşkilini məhz ölkəmizə həvalə edib.

Müasir Azərbaycan gimnastikasında olan bugünkü nailiyyətlər ölkəmizin Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Mehriban xanımın rəhbərlik etdiyi yerli təşkilat komitəsinin hər bir üzvünə, yerli və xarici könüllülərə minnətdarlığımızı bildiririk.

Sözsüz ki, yarışın Tokio Olimpiya Oyunlarına təsnifat xarakteri daşıması, 61 ölkənin 300-dən çox idmançısının mükafatlar uğrunda mübarizə aparması dünya çempionatının gərgin mübarizə şəraitində keçəcəyinə, maraqlı və unudulmaz olacağına əminlik yaradır. İdmançılara isə yaranmış bu imkandan bəhrələnərək layiqli mübarizə aparmağı və qələbə qazanmalarını arzu edirəm.

Diqqətinizə görə çox sağ olun.







* * *

Beynəlxalq Gimnastika Federasiyasının prezidenti **Morinari VATANABE** çıxış edərək dedi:

- Beynəlxalq Gimnastika Federasiyasının prezidenti olaraq sizi burada - Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatında salamlamaqdan məmnunluq duyuram. Bu gündən etibarən yeddi gün ərzində dünyanın müxtəlif ölkələrindən olan bədii gimnastlar "Tokio 2020" Olimpiya Oyunlarına lisenziya qazanmaq uğrunda mübarizə aparacaqlar. Onlar həm də gözəllik üçün yarışacaqlar. Mən inanıram ki, bu, tamaşaçılar üçün gözəl musiqi və əsrarəngiz bədii gimnastika çıxışlarının harmoniyasından həzz almaq üçün böyük bir imkandır.



Azərbaycan Gimnastika Federasiyasına, xüsusilə də federasiyanın prezidenti Mehriban xanım Əliyevaya, Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimova, tədbirin bədii gimnastika üzrə səfiri Yana Batırşinaya, könüllülərə və çempionatı bu cür gözəl səviyyədə təşkil etməkdə əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Əziz gimnastlar, əminəm ki, siz bədii gimnastikanın gözəlliyini və mükəmməlliyini dünyaya nümayiş etdirəcəksiniz.

* * *

Mərasimdə Beynəlxalq Gimnastika Federasiyasının sentyabrın 13-də vəfat edən, iyirmi il bu quruma rəhbərlik etmiş sabiq prezidenti Bruno Qrandinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Sonra Azad Rəhimov, Morinari Vatanabe və dünya çempionatının səfiri, bir neçə dəfə dünya çempionu, Olimpiya Oyunlarının mükafatçısı, rusiyalı gimnast Yana Batırşina çempionatı açıq elan etdilər.

Tanınmış müğənni və bəstəkar, Əməkdar artist Tünzalə Ağayeva Azərbaycanın Dövlət himnini akapella üslubunda ifa etdi.

Daha sonra hakimlərin, gimnastların və məşqçilərin adından and içildi. Misir Gimnastika Federasiyasının nümayəndəsi Sarah Qhoneim hakimlər, azərbaycanlı gimnast Zöhrə Ağamirova atletlər, Meksika yığma komandasının məşqçisi Karalina Rangel isə məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və idmanda ədalət prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olduğunu bir daha xatırlatdı.

Dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış "Birinci ol" mahnısını ifa etdi.

Mərasimdə Şərq motivləri əsasında səhnələşdirilmiş "Şərq nağılı" şousu təqdim olundu. Şouda gimnastikanın müxtəlif növləri üzrə 200-ə yaxın gimnast və onların məşqçiləri iştirak etdilər. Bu şouda səhnəyə çıxan ən kiçik gimnastın doqquz yaşı var.

Şoudan sonra məşhur müğənni, Xalq artisti, hit mahnıların ifaçısı Emin Ağalarov sevilən mahnıları ilə tamaşaçıların qəlbini fəth etdi.

Beləliklə, Azərbaycan daha bir unudulmaz açılış mərasimi ilə adını dünya gimnastika yarışlarının tarixinə yazdı.

Qeyd edək ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 61 ölkədən 300 gimnast 9 dəst medal uğrunda mübarizə aparır.

"Nağıllar gerçəkləşəcək" devizi ilə təşkil olunan dünya çempionatına Azərbaycan 9 gimnastla qatılıb. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Sentyabrın 22-dək davam edəcək çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) Tokio Olimpiadasına lisenziya əldə edəcəklər. Qrup hərəkətləri komandalarına gəldikdə isə, ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Çempionatda çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Olimpiadaya vəsiqə qazanacaq.

# Dünya gimnastikasının nəbzi Bakıda döyünür

Azərbaycan artıq beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır. Bu, həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsidir. İdmançılar hərtərəfli qayğı ilə əhatə olunurlar ki, bu da beynəlxalq yarışlarda onların daha böyük uğurlar əldə etməsinə imkan yaradır. Mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda müasirləri inşa edilir. Digər tərəfdən, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı idman yarışlarına evsahibliyi edir.

Bu günlərdə paytaxtımızda daha bir mötəbər yarış - bədii gimnastika üzrə 37-ci dünya çempionatı keçirilir. Sentyabrın 22-dək davam edəcək turnirdə 61 ölkədən 300-dən artıq gimnast çempionatda 9 dəst medal uğrunda mübarizə aparacaq.

Milli Gimnastika Arenasında keçirilən dünya çempionatına ölkəmiz 9 gimnastla qatılıb. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.













Çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaqlar. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Çempionatda çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda olimpiadaya vəsiqə qazanacaq.

Dünya çempionatının birinci günündə gimnastlar fərdi proqram üzrə halqa və topla təsnifat mərhələsində güclərini sınayıblar. Milli komandamızın heyətində ilk olaraq Zöhrə Ağamirova və Veronika Qudis xalça üzərinə çıxıblar. A qrupunda iki gimnastımızdan Zöhrə Ağamirova 19,000 xalla 5-ci, Veronika Qudis isə 16,950 xalla 16-cı yerdə qərarlaşıblar. Azərbaycan komanda hesabında 35,950 xalla beşinci pillədə yer alıb. Komanda sıralamasında Ukrayna 41,450 xalla birinci, Belarus 40,200 xalla ikinci, Çin isə 37,400 xalla üçüncü sıradadır.

Dünya çempionatının fərdi proqram üzrə halqa və topla təsnifat mərhələsində B qrupundakı çıxışlara da yekun vurulub. Top ilə yarışlarda Ukrayna idmançısı Vlada Nikolçenko 21,400 xalla liderliyini davam etdirir. İlk üçlüyü İtaliya təmsilçiləri Milena Baldassarri (21,300 xal) və Aleksandra Aqurqiuculese (20,950) tamamlayıblar.

Halqa ilə yarışlarda ABŞ təmsilçisi Evita Qriskinas 21,000 xalla gimnastların sıralamasında birinci olub. Yaponiyalı Kaho Minaqava 20,950 xalla ikinci, digər ABŞ idmançısı Laura Zenq (20,700) isə üçüncü pillədə yer alıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Türkiyənin Vitse-prezidenti Fuat Oktayın Azərbaycana rəsmi səfəri

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay sentyabrın 15-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hərbi orkestr Azərbaycan və Türkiyənin Dövlət himnlərini səsləndirib.

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayı Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşılayıblar.



## Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay sentyabrın 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## Şəhidlərin xatirəsinə ehtiram

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay sentyabrın 16-da Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Fuat Oktay Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Türkiyənin Vitse-prezidentinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sonra Türkiyənin Vitse-prezidenti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzüb.

Vitse-prezident Fuat Oktay xatirə kitabına ürək sözlərini yazıb.





## Bakıda Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclası keçirilib

Sentyabrın 16-da Bakıda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasa Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan tərəfdən komissiyanın həmsədri Novruz Məmmədov və Türkiyə Respublikasının Vitse-prezidenti, Türkiyə tərəfdən komissiyanın həmsədri Fuat Oktay rəhbərlik ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın təkbətək görüşü olub.

Sonra iclas işini nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirib.

İclasda hər iki tərəfdən komissiyanın üzvü olan nazirlik, qurum və digər təşkilatların nümayəndələri iştirak ediblər.

Baş Nazir Novruz Məmmədov iclasda çıxış edərək Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclasının xalqımızın tarixində mühüm bir hadisəyə - Bakının erməni daşnak və bolşevik birləşmələrinin işğalından azad olunmasının 101-ci ildönümünə təsadüf etdiyini vurğuladı. Baş Nazir 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Azərbaycan milli ordu birləşmələri ilə birgə Bakının erməni daşnak və bolşevik birləşmələrinin işğalından azad etməsinin Türkiyə-Azərbaycan əbədi qardaşlığının təzahürü olduğunu ifadə etdi.

Novruz Məmmədov Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrindən danışaraq bildirdi ki, dövlətlərimizin başçılarının bir-birinə göstərdiyi səmimi dəstək və qardaşlıq münasibətləri hər birimiz üçün örnəkdir. Bunun nəticəsidir ki, hər iki dövlətin imza atdığı iri beynəlxalq layihələr uğurla həyata keçirilir. Birgə həyata keçirdiyimiz layihələr bizi daha da gücləndirir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu və eləcə də digər layihələr təkcə ölkələrimiz üçün deyil, bütün regionumuz üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan-Türkiyə birliyi, dostluğu və strateji müttəfiqliyi regional sabitliyə və tərəqqiyə də töhfə verir.



Baş Nazir qeyd etdi ki, indiyədək Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın keçirilən 7 iclasında həllini gözləyən bir sıra məsələlər üzrə qərarlar qəbul edilib, onların icrası təmin olunub. Həmçinin ali və yüksək səviyyəli görüşlərdə bir çox mühüm məsələlər müzakirə edilib və imzalanan sənədlərdə nəzərdə tutulmuş müddəalar bizə daha fəal çalışmaq üçün geniş imkanlar yaradıb. Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrdə ildən-ilə daha da genişlənməsi və möhkəmlənməsi bunun bariz nümunəsidir.

Novruz Məmmədov deyib: "Bildiyiniz kimi, ticarət-iqtisadi, nəqliyyat, rabitə, kənd təsərrüfatı, humanitar, turizm, maliyyə, vergilər, bank işi, sənaye və energetika, ekologiya, su təsərrüfatı, təhsil və digər sahələrdə daha da dərinləşən münasibətlərimiz iki qardaş ölkənin mənafeyinə və xalqlarının gələcəyinin firavan olmasına xidmət edir".

Baş Nazir diqqətə çatdırdı ki, qarşılıqlı sərmayə qoyuluşunun səviyyəsi bizi məmnun edir. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. "Bu mənada "Petkim" neft-kimya kompleksini və "Star" neft emalı zavodunu xüsusi qeyd etmək istərdim. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın və etibarlı tərəfdaş olsun".

"Azərbaycanın müstəqilliyinin bərpasının ilk günlərindən Türkiyə daim bizim yanımızdadır" deyən Novruz Məmmədov bildirdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qardaş Türkiyə hər zaman Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. İndiyədək bütün sahələrdə göstərilən yardımlara, xüsusən də Azərbaycan üçün çox böyük önəm daşıyan müdafiə, müdafiə sənayesi, tibb və təhsil sahələrində köməyi yüksək qiymətləndiririk. Ermənistanın hərbi təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına göstərilən daimi dəstəyə görə dərin təşəkkürümüzü bildiririk.

Dost, qardaş Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Hökumətlərarası Komissiyanın səkkizinci iclasının Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyətinin dəyərləndirilməsi və əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından uğurlu olacağına əminliyini bildirdi.

"Türkiyə və Azərbaycan ortaq tarixə malik, hər zaman sevincləri və kədərləri birgə bölüşən qardaş ölkələrdir. Biz iki dövlət, bir millətik. Biz Azərbaycan və Türkiyə arasında mövcud dostluq və qardaşlıq münasibətlərini iqtisadi-ticari sahədə daha da genişləndirmək niyyətindəyik" deyə Vitse-prezident diqqətə çatdırdı.

İclasda hər iki ölkənin iqtisadi-ticari əlaqələrinin mövcud vəziyyəti, genişləndirilməsi və iqtisadi əməkdaşlığın davamlılığının təmin olunması ilə bağlı məsələlər müzakirə olundu.

Sonra Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclasının Protokolu imzalandı. Protokolu Azərbaycanın Baş Naziri Novruz Məmmədov və Türkiyənin Vitse-prezidenti Fuat Oktay imzaladılar.

Protokolda komissiyanın səkkizinci iclasının Azərbaycan və Türkiyə arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsinə müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub. İclasda, həmçinin Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair müzakirələrin nəticəsi olaraq, iclasın Protokoluna əlavə kimi tərtib edilmiş 2019-2021-ci illər üzrə Fəaliyyət Planı da qəbul edilib.

Daha sonra Azərbaycanın Baş Naziri Novruz Məmmədov və Türkiyənin Vitse-prezidenti Fuat Oktay mətbuata bəyanatlarla çıxış etdilər.

Baş Nazir Novruz Məmmədov komissiyanın səkkizinci iclası ilə bağlı məlumat verərək bildirdi ki, komissiya tərəfindən gündəlikdə olan məsələlər ilə bağlı səmərəli iş aparılıb. Ümumilikdə 147 məsələ ətrafında fikir mübadiləsi aparılıb və bütün məsələlərlə bağlı razılıq əldə olunub.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında dövlətlərimizin başçılarının həmsədrliyi ilə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının vacib rolunu vurğulayan Baş Nazir Novruz Məmmədov deyib: "Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Hökumətlərarası Komissiyanın və ümumilikdə hər iki ölkənin dövlət qurumları qarşısında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı konkret vəzifələr müəyyənləşdiriblər. Biz də bu istiqamətdə fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirəcəyik. Hesab edirəm ki, bizim bugünkü iclasımız ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verəcək".

Novruz Məmmədov iki ölkə arasında viza rejiminin aradan qaldırılmasının əhəmiyyətini və bu mühüm hadisənin iqtisadi, ticarət, sosial, humanitar və digər sahələrdəki əlaqələrin inkişafına daha da müsbət təsir edəcəyini vurğuladı.

Vitse-prezident Fuat Oktay iclasda ölkələrimiz arasındakı iqtisadi-ticarət əlaqələrinə dair ətraflı müzakirələrin aparıldığını diqqətə çatdıraraq dedi: "İclasda Türkiyə ilə Azərbaycan arasında yeni əməkdaşlıq imkanları nəzərdən keçirildi. Əminəm ki, komissiyanın səkkizinci iclası ikitərəfli münasibətlərimizin genişlənməsinə təkan verəcək və əməkdaşlığımız üçün yeni üfüqlər açacaq".

Fuat Oktay bildirdi ki, Türkiyə və Azərbaycan regionda güclü iqtisadiyyata malik ölkələrdir. Türkiyə-Azərbaycan əməkdaşlığının daha da genişləndirilməsi xalqlarımızın rifah halının yüksəlməsinə, regionun inkişafına xidmət edir.

## Türkiyənin Vitse-prezidenti Fuat Oktayın şərəfinə rəsmi nahar verilib

Sentyabrın 16-da Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun adından Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın şərəfinə rəsmi nahar verilib.

AZƏRTAC xəbər verir ki, səmimi söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.



## Azərbaycan Türkiyə iqtisadiyyatına 15,1 milyard dollar investisiya yatırıb

Sentyabrın 16-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın Azərbaycana səfəri çərçivəsində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) təşkilatçılığı ilə Azərbaycan-Türkiyə biznes forumu keçirilib.

Tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki ölkədən ticarət, sənaye, energetika, nəqliyyat və logistika, tikinti, kənd təsərrüfatı, maliyyə, səhiyyə və digər sahələrdə fəaliyyət göstərən 300-ə yaxın iş adamı iştirak edib.

Biznes forumda çıxış edən İqtisadiyyat naziri Şahin Mustafayev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin iki ölkə arasındakı münasibətlərə yüksək qiymət verərək müəyyənləşdirdiyi "Bir millət, iki dövlət" prinsipi əlaqələrimizin inkişafında möhkəm təməldir. Dövlət başçılarının səmimi dostluq münasibətləri, əməkdaşlığın genişləndirilməsi istiqamətində verdikləri tapşırıqlar Azərbaycan-Türkiyə əlaqələrinin dərinləşdirilməsini şərtləndirən əsas amillərdir. Hər iki ölkədə Prezident seçkilərindən sonra dövlət başçısı səviyyəsində ilk səfərlərin qarşılıqlı olaraq həyata keçirilməsi ənənəsi onu göstərir ki, bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir, ən yaxın müttəfiqlər və qardaş dövlətlərdir.

Forumda Türkiyə Respublikasının Vitse-Prezidentinin iştirakı bu əməkdaşlığa ən yüksək səviyyədə verilən dəstəyin göstəricisidir.

Nazir iqtisadi əlaqələrin inkişafında Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyasının səmərəli platforma olduğunu diqqətə çatdırıb və qeyd edib ki, komissiyanın Bakıda keçirilmiş 8-ci iclasında müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan hərtərəfli Fəaliyyət Planının qəbulu ticarət-iqtisadi münasibətlərimizin inkişafına, gələcəkdə yeni birgə layihələrin reallaşdırılmasına öz töhfəsini verəcək.

Şahin Mustafayev vurğulayıb ki, Türkiyə və Azərbaycan ölkələrimiz və dünya üçün böyük əhəmiyyət kəsb edən strateji layihələri birlikdə həyata keçirir. Bu baxımdan Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Ərzurum, Azəri-Çıraq-Günəşli, Bakı-Tbilisi-Ceyhan, STAR, PETKİM, Azərbaycan-Gürcüstan-Türkiyə enerji körpüsü kimi strateji layihələr xüsusilə qeyd edilməlidir. Bu layihələr və təşəbbüslər regional əməkdaşlığı möhkəmləndirir və sabitliyi təmin edir.

İqtisadiyyat naziri ikitərəfli əməkdaşlıqda iqtisadi-ticarətin əhəmiyyətli yerini və Türkiyənin ölkəmizin əsas ticarət tərəfdaşlarından olduğunu, görülmüş işlər nəticəsində bu sahədə artımın davamlı xarakterini diqqətə çatdırıb. Belə ki, 2018-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 2017-ci illə müqayisədə 28 faiz artaraq 3,4 milyard dollar təşkil edib, artım tendensiyasının davam etdiyi 2019-cu ilin ilk 7 ayında bu göstərici ötən ilin eyni dövrünə nisbətən 33 faiz artaraq 2,3 milyard dollara çatıb. Bununla belə, qarşılıqlı ticarətin daha da genişləndirilməsi, strukturunun şaxələndirilməsi əsas hədəfimizdir. İmzalanması planlaşdırılan Preferensial Ticarət Sazişi bu hədəflərin reallaşdırılmasına töhfə verəcək.



Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 3040 Türkiyə kapitallı şirkət fəaliyyət göstərir ki, bu iş üzrə Türkiyə birinci yerdədir. Türkiyə şirkətləri Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçirilən və dəyəri 15,5 milyard dollar olan 300-ə yaxın layihədə podratçı qismində iştirak etməklə, bu sahədə də liderlik edirlər.

Ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Türkiyə şirkətləri Azərbaycan iqtisadiyyatına 12,2 milyard dollar sərmayə yatırıb. Azərbaycanda qeyri-neft sektoruna sərmayə qoyanlar arasında qardaş ölkə birinci yerdədir.

Azərbaycanın xaricdə ən çox investisiya yatırdığı ölkə məhz Türkiyədir və ölkəmizin Türkiyə iqtisadiyyatına investisiyaları 15,1 milyard dollar təşkil edir.

Biznes forumların, ticarət missiyalarının, sərgilərin təşkili, eləcə də AZPROMO və KOBİA ilə Türkiyənin DEİK, KOSGEB və digər aidiyyəti qurumları arasında əməkdaşlıq ticarət dövriyyəsinin və qarşılıqlı investisiya qoyuluşunun daha da artırılmasına böyük töhfə verir. Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində işğaldan azad edilən və Prezident İlham Əliyevin sərəncamlarına uyğun olaraq bərpa olunmuş, su, qaz, elektrik, yol və digər infrastruktur yaradılmış Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində kiçik sahibkarlığın dəstəklənməsi və məşğulluğun təmin edilməsi məqsədilə Türkiyənin dəstəyi ilə həyata keçirilən layihələr bu sahədəki əməkdaşlığımıza yaxşı nümunədir.

Şahin Mustafayev nəqliyyat-tranzit sahəsinin ikitərəfli münasibətlərdə böyük potensiala malik olan istiqamətlərdən biri olduğunu qeyd edib. Azərbaycan və Türkiyə əlverişli coğrafi mövqeyə malik olmaqla regionun mühüm nəqliyyat və logistika mərkəzlərinə çevrilib. 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə 3000-ə yaxın konteyner, bu ilin ilk 8 ayında isə 2500-dən çox konteyner daşınıb. 2019-cu ilin yanvar-iyul aylarında Türkiyədən Orta Asiyaya və əks istiqamətdə TIR ilə 171 min ton yük daşınıb ki, bu göstərici 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 123 faiz çoxdur.

Turizm sahəsində əməkdaşlığı qeyd edən Şahin Mustafayev 1 sentyabr 2019-cu il tarixindən Azərbaycana səfər edən Türkiyə vətəndaşlarına viza tələbinin ləğv edilməsinin həm sahibkarlıq, həm də turizm sahələrində ciddi irəliləyişlərə gətirib çıxaracağını, bu addımın Azərbaycan Respublikası Prezidentinin qardaş Türkiyə Respublikası ilə əməkdaşlığa verdiyi önəmin və yüksək diqqətin göstəricisi olduğunu vurğulayıb.

Şahin Mustafayev iki qardaş ölkə arasında iqtisadiyyatın bir çox sahələrində, o cümlədən ticarət, investisiya, kiçik və orta biznes, enerji, nəqliyyat, kənd təsərrüfatı, qida istehsalı, sənaye, təhsil, turizm, İKT, maliyyə və digər sahələrdə əməkdaşlıq imkanlarının geniş olduğunu diqqətə çatdırıb və hər iki ölkənin işgüzar dairələrini bu imkanlardan yararlanmağa və qarşılıqlı faydalı birgə layihələri həyata keçirməyə, müştərək müəssisələr yaratmağa dəvət edib.

Türkiyənin Vitse-prezidenti Fuat Oktay Azərbaycan-Türkiyə əlaqələrinin yüksək səviyyədə olduğunu və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, əməkdaşlığın genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, aparılan danışıqların mühüm əhəmiyyətini qeyd edib. Azərbaycan və Türkiyə iqtisadi ticarət əməkdaşlığı uğurla inkişaf edir, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir, hər iki ölkənin iştirakı ilə enerji və nəqliyyat sahəsində qlobal və regional əhəmiyyətli meqa layihələr reallaşdırılır.

Türkiyənin Vitse-prezidenti həmçinin, Bakıda keçirilən Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyasının növbəti iclasının iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin daha da dərinləşməsinə xidmət etdiyini bildirib.

Fuad Oktay biznes forumun əməkdaşlığın genişləndirilməsi istiqamətində əhəmiyyətli olacağını vurğulayıb, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika, ticarət, müdafiə sənayesi və digər sahələrdə əlaqələrin inkişafı üçün geniş potensialı qeyd edib, biznes dairələrini daha fəal əməkdaşlığa, birgə investisiyaların yatırılmasına dəvət edib.

Biznes forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib, sahibkarlar əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması məsələlərini müzakirə ediblər.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

## Türkiyənin Vitse-prezidenti Fuat Oktay "ASAN xidmət" mərkəzi ilə tanış olub

Sentyabrın 16-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay "ASAN xidmət" mərkəzi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, görüşdə agentlik ilə qardaş ölkənin müvafiq qurumları arasında uğurlu əməkdaşlıqdan bəhs olunub və "ASAN xidmət" modelinin Türkiyədə tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.

Qonaq, həmçinin "ABAD" publik hüquqi şəxs, "ASAN Radio" və "ASAN Təlim-Tədris Mərkəzi"nin fəaliyyəti ilə tanış olub.

## Türkiyənin Vitse-prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın Azərbaycan Respublikasına rəsmi səfəri sentyabrın 16-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Vitse-prezident Fuat Oktayı Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər yola salıblar.

# Nuru paşa - Azərbaycan xalqının qəlbini fəth edən müzəffər komandan

101 il öncə bu gün - sentyabrın 15-də Bakı işğaldan qurtuldu. 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu yenicə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordu hissələri ilə birlikdə Bakıya daxil oldu, minlərlə şəhidin qanı bahasına şəhəri erməni-bolşevik işğalçılarından azad etdi, Azərbaycanımızın paytaxtına çevrilməsində misilsiz tarixi rol oynadı.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.

Əli Həsənov yazır: "O dövrdə milli müstəqilliyimiz yenicə elan olunmuşdu. Dövlət institutları hələ formalaşmağa macal tapmamış məmləkətimiz və onun sərvətləri uğrunda gedən geopolitik savaşda, qanlı maraqlar toqquşmasında Bakısız qalmış Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları tərəfindən haqlı olaraq başsız bədənə bənzədilirdi. Azərbaycan fiziki bütövlüyünə qan və inanc qardaşları ilə çiyin-çiyinə verərək, Bakıdakı özbaşınalıqlara, hərcmərcliyə, talan və repressiyalara son qoyaraq qovuşdu. Baş şəhər də daxil olmaqla, ölkəmizin dörd bir yanı zəfər təntənəsinə büründü. Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Bakıya daxil olması müqəddəs Qurban bayramı günlərinə təsadüf edirdi. Bu səbəbdən də təkcə Bakıda və bölgələrimizdə deyil, qalibiyyətin sorağını alan bütün türk-islam dünyasında bayram-bayrama qarışmışdı. Bakıda türk ordusunun adına qurbanlar kəsilmiş, şəninə ziyafətlər verilmiş, məşhur milyonçu, öz xeyriyyəçiliyi ilə xalqımızın yaddaşına əbədi həkk olunmuş Hacı Zeynalabdin Tağıyev indiki Dövlət Filarmoniyasının binasında təmtəraqlı süfrə açaraq Nuru paşanı əhali adından salamlamış, ona yüksək ehtiram göstərmişdi.

Nuru paşanın xatirəsi, Qafqaz İslam Ordusunun rəşadəti ötən əsrin sonlarında öz müstəqilliyini yenidən qazanmış Azərbaycanda həm cəmiyyət, həm də dövlət səviyyəsində xüsusi ehtiramla yad edilir. Bu ehtiramın ən bariz təcəssümü Şəhidlər xiyabanında Qafqaz İslam Ordusuna ucaldılan abidədir. Bu abidə böyük Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinin həm yaxın tariximizdəki əsaslarını, həm də gələcək hədəflərinin gerçəkləşməsi baxımından son dərəcə ciddi əhəmiyyət daşıyan fədakarlıq tələbini simvolizə edən bir əsərdir. Bu abidənin layihəsi 1918-ci ildə hazırlanmış, ADR parlamentinin 15 sentyabr 1919-cu ildə Bakının azad olunmasının 1 ili münasibətilə keçirilən xüsusi iclasından sonra hökumət üzvləri, millət vəkilləri Çəmbərəkənd qəbiristanlığına gedərək türk əsgərinin heykəlinin qoyulması üçün özül inşa etmişdilər. Lakin 28 aprel ilhaqı bu abidənin ucaldılmasına imkan vermədi. Müstəqilliyin bərpasından sonra Azərbaycan və Türkiyə hökumətlərinin razılaşmasına əsasən həmin layihə davam etdirildi. Abidənin yeni təməli 1999-cu ildə qoyuldu, bir il sonra isə Azərbaycan Prezidenti Heydər Əliyevin və Türkiyə Prezidenti Süleyman Dəmirəlin iştirakı ilə açılış mərasimi keçirildi. Bildiyiniz kimi, ötən il Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi ilə bağlı bir çox rəsmi, elmi və mədəni tədbirlər təşkil olundu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirak və qəbul etdikləri əzəmətli hərbi paradda xalqlarımız və dövlətlərimiz arasındakı bağların qırılmazlığı, zamanın qardaşlıq duyğularımızı daha da gücləndirdiyi, torpaqlarımızın işğaldan azad edilməsi üçün yenə də birgə iradə ortaya qoymağımız bütün dünyaya nümayiş olundu.




Bəli, 1918-ci ilin sentyabr ayının 15-də Bakının azad edilməsi ilə kulminasiya nöqtəsinə çatan Osmanlı ordusunun Qafqaz hərəkatı dünən də, bu gün də, gələcək üçün də tayı-bərabəri olmayan tarixi örnəkdir. Onunla örnəkdir ki, Qafqaz İslam Ordusu qurularkən məqsəd nə Osmanlı dövlətinin torpaqlarını müdafiə etmək, nə də yeni ərazilər zəbt etmək olmuşdu. Bu, sözün əsl mənasında, qardaşın qardaşa haraya gəlməsi, heç bir maddi və siyasi mənfəət güdmədən onu zamanın qəddar sərvət ovçularının, uşaqlara, qadınlara, qocalara rəhmi gəlməyən amansız qatillərin caynağından xilas etmək məramı idi. Buna rəğmən hərəkatın uğurla başa çatacağı və davamlı olacağı halda həm qocaman, həm də gənc qardaş elə əlverişli mövqe sahibinə çevriləcəkdi ki, XX əsrin tarixi də, coğrafiyası da yaşadığımızdan tamam fərqli şəkil alacaqdı.

Qafqaz İslam Ordusu Birinci Dünya müharibəsinin sonlarına doğru qurulmuşdu. Ordunun qurulması prosesinin başlanğıcında 12 maddəlik bir təlimatnamə tərtib edilmiş, birliyə komandan təyin olunan Nuru paşa Killigilə bu sənəd üzrə Osmanlı dövlətinin Qafqazdakı baş təmsilçisi vəzifəsi həvalə olunmuşdu. Osmanlı hakimiyyətinin son dərəcə konspirativ, hətta öz müttəfiqlərindən də gizli şəkildə yaratdığı bu hərbi birləşməyə "islam" adının verilməsi tərkibinin tamamilə müsəlmanlardan ibarət olması ilə bağlı idi. Sıravi əsgərlərindən tutmuş əsas komandirlərinə qədər bütün şəxsi heyətində bircə nəfər də olsun qeyri-müsəlman olmayan ordunun tək vəzifəsi vardı - Qafqaz müsəlmanlarına, Azərbaycan türklərinə hərbi yardım göstərmək, xalqımızın və torpaqlarımızın üzləşdiyi təcavüzləri dəf etmək!

Nuru paşanın başçılıq etdiyi ordu mayın 16-da Naxçıvana, 25-də isə Gəncəyə daxil oldu. Üç gün sonra Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi və İslam aləmindəki ilk demokratik respublikanın paytaxtı Gəncə oldu. ADR hökumətinin üzləşdiyi çox sayda dərin problemlər vardı. İlk növbədə ölkənin ərazi bütövlüyünün təmin olunması labüd idi. Bunun üçün formatını tez-tez dəyişən, mahiyyət olaraq isə erməni daşnak zehniyyətinə xidmət edən inqilabçı dəstələrin hökmranlığına son qoymaq lazım idi. Bu zərurətə əsaslanaraq 4 iyun 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında Batum anlaşması imzalanmışdı. Müqavilənin dördüncü maddəsində nəzərdə tutulurdu ki, Azərbaycan Xalq Cümhuriyyətinin istəyi ilə daxili asayişin təmin olunması üçün Osmanlı hökuməti ölkəmizə hərbi yardım göstərməyi öz üzərinə götürür. Bu sənəd Qafqaz İslam Ordusunun Bakıya yürüşü üçün hüquqi əsas oldu. Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin əsgərləri ilə birlikdə Nuru paşanın başçılığı altında Göyçayda, Salyanda və digər ərazilərimizdə qarşısına çıxan düşmən qüvvələri darmadağın edərək qısa müddətdə Bakıya yaxınlaşdı, 1918-ci il avqustun 1-dən etibarən burada hakimiyyəti ələ keçirmiş daşnak və menşeviklər tərəfindən qurulan Sentrokaspi diktaturasına ultimatum verdi. Ultimatum yerinə yetirilmədiyindən 14 sentyabr gecəsi Nuru paşanın əmri ilə hücum təşkil edildi və ertəsi gün saat 15 radələrində qələbə fişəngi atıldı. Beləliklə, Nuru paşa tarixə adını Birinci Dünya müharibəsində Osmanlının qazandığı üç zəfərdən (Çanaqqala və Kütül Amarə zəfərləri ilə yanaşı) birinin sərkərdəsi, eyni zamanda, xalqımızın qəlbini fəth edən milli məfkurə sahibi kimi yazdırdı".

# Azərbaycanın xanlıqlar dövrü haqqında kitab Rusiya kitabxanalarında



Moskvada nəşr olunmuş "Politiçeskoe nasledie perioda xanstv istorii Azerbaydjana v svete dokumentov" ("Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında") kitabı Rusiyanın aparıcı kitabxanalarına verilib.

Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, akademik Ramiz Mehdiyevin müəllifi olduğu kitab Rusiyanın 20-yə yaxın ən nüfuzlu kitabxanasının fonduna daxil edilib. Onların sırasında Rusiya Dövlət Kitabxanası, Rusiya Milli Kitabxanası, Rusiya Federasiyası Prezident Administrasiyası Kitabxanası, Rusiya Federasiyası Parlament Kitabxanası, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Kitabxanası, Rusiya Elmlər Akademiyası Kitabxanası və oxucuların daha çox müraciət etdiyi digər kitabxanalar var.

Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən olan xanlıqlar dövrünün indiyədək tarixşünaslığa gizli qalan həqiqətlərini üzə çıxaran kitab bir çox elmi mənbələrdə əksini tapmış yanlış qənaət və nəticələrin aradan qaldırılmasına, eləcə də ictimai fikir üçün aktual və önəmli olan mövzuya daha sistemli və ədalətli baxışın formalaşmasına imkan yaradır, tarixi hadisələri, simaları tutarlı elmi faktlar və arxiv sənədləri vasitəsilə işıqlandırır.

Tarixçilər və mənbəşünaslar, eləcə də Azərbaycanın qədim tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün qiymətli elmi mənbə olan əsərin rus dilinə tərcüməçisi Püstə Axundova, redaktoru Nadiyə Qafarova və Fərrux Rzayevdir. Mətnlərə dair şərh və qeydlərin müəllifi siyasi elmlər üzrə fəlsəfə doktoru Eldar Əmirov, arxiv sənədlərinin fars dilindən tərcüməçisi AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktor müavini Şahin Yəhyayevdir.

# Türkiyədən gəlmiş qazilər Bakının qurtuluşu gününə həsr olunmuş mərasimdə "Yallı" halayına qoşulublar

Bakının bolşevik-daşnak işğalından azad edilməsinin 101-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən təntənəli mərasimdə Türkiyədən gəlmiş veteranlar da iştirak ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Qarnizonundakı hərbi hissələri, qoşunları təmsil edən əsgər və zabitlər, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları Türkiyə səfirliyində Mustafa Kamal Atatürkün və Nuru Paşanın abidələrini ziyarət edib, Nuru Paşa salonu ilə tanış olublar.

Azərbaycan və Türkiyə Respublikalarının dövlət bayraqları ilə bəzədilmiş amfiteatrda əsl bayram əhvali-ruhiyyəsi yaşanıb. Hərbi orkestr Türkiyədən gəlmiş qaziləri, istefada olan türk paşalarını, Türkiyə Silahlı Qüvvələrinin və Azərbaycan Ordusunun rəsmilərini, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələrini 101 il öncənin əsgər mahnıları və marşları ilə qarşılayıb.

Layihənin müəllifi, Müdafiə Nazirliyinin zabiti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani 1918-ci ilin 15 sentyabr gününü Bakının qurtuluş günü olduğunu vurğulayaraq, bu günün ölkəmizin XX əsr tarixinə şanlı hərflərlə yazıldığını qeyd edib: "101 il əvvəl Azərbaycan Əlahiddə Korpusu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Azərbaycan və Türkiyə əsgərlərinin, zabitlərinin qəhrəmanlığı, rəşadəti nəticəsində Bakı tamamilə azad olundu. Tarixi düşmənlərimizin arzuları gözlərində qaldı, onlar mənfur niyyətlərini həyata keçirə bilmədilər. Müstəqilliyini yenicə elan etmiş Azərbaycan Xalq Cümhuriyyətini beşiyindəcə boğmaq istəyən nankor qüvvələr qəhrəman mehmetciyin və Azərbaycan Ordusunun ilk döyüşçülərinin qarşısında duruş gətirə bilmədilər. Neçə-neçə şəhidlər verilsə də, Qafqaz İslam Ordusunun əsgər və zabitləri ruhdan düşmədilər və bir addım da olsun geri çəkilmədilər.

Bakının işğaldan azad edilməsi günü sevinci və kədəri bir olan bir millət-iki dövlətin, Azərbaycan və Türkiyə xalqlarının müştərək zəfər bayramı günüdür. Bakının qurtuluşundan əsrdən artıq vaxt ötsə də xalqımız "Qan ilə qazandıq zəfəri, verməyiz əldən!" şüarı ilə vuruşmuş türk və azərbaycanlı əsgərlərin xatirəsini həmişə əziz tutur, onları minnətdarlıqla yad edir. Biz 101 il əvvəl olduğu kimi, 15 sentyabr gününü bu gün də birlikdə qeyd edir, gələcəkdə də əziz bayram kimi qeyd edəcəyik. Bu, heç kimdə şübhə doğurmamalıdır".

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün, ulu öndər Heydər Əliyevin, Nuru Paşanın, həmçinin hər iki ölkənin şəhidlərinin xatirəsi sayğı duruşu ilə yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət himnləri ifa olunub.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral təntənəli mərasimin iştirakçılarını salamlayıb, əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. O, tədbirin təşkilində göstərdiyi köməyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə və təşkilatçılara minnətdarlığını bildirib.

Səfir qeyd edib ki, Bakının işğaldan azad edilməsi bütün türk dünyası və onun gələcəyi üçün tarixi bir hadisə idi. Qarşılıqlı münasibətlərimiz baxımından deyil, həm də dünya tarixi üçün önəmli hadisə olan Bakının işğaldan azad edilməsi Azərbaycan və Anadolu türklərinin qardaşlığının, birliyinin, həmrəyliyinin bariz nümunəsi idi. Birinci Dünya müharibəsinin başa çatmasından sonra Osmanlı imperiyası son günlərini yaşamasına, parçalanmaq təhlükəsi ilə üzləşməsinə baxmayaraq, ən yaxşı əsgərlərini Azərbaycana köməyə göndərdi. Onlar qardaş köməyinə gəldilər, döyüşdülər, yaralandılar, şəhid oldular. Ancaq qarşılarına qoyduqları məqsədə çatdılar. Bakı və ətraf rayonlar işğaldan azad edildi.

Sonra E.Özoral Türkiyədə Qurtuluş savaşına böyük dəstək vermiş və nəticədə Türkiyənin dünya xəritəsindən silinməsinə qarşı mübarizədə böyük dəstək olmuş Nəriman Nərimanovun bu köməyin əvəzini verməyi təklif edən Mustafa Kamal Atatürkə "Paşam, Türk millətində bir ənənə vardır, qardaş qardaşa borc verməz, qardaş hər durumda qardaşın əlindən tutar" cavabını xatırlayıb və bunun bir ənənə, örnək olduğunu bildirib.

Səfir ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamının hər iki ölkənin vətəndaşları üçün şüar olduğunu, bu qardaşlığın Azərbaycan və Türkiyə respublikalarının prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən bu gün də uğurla davam etdirildiyini söyləyib.

İstefada olan general-leytenant Yaşar Aydəmirov, general-mayor Rasim Əliyev çıxışlarında Nuru Paşanı və onun qəhrəman əsgərlərini ehtiramla yad edib, Türkiyə təmsilçilərinə minnətdarlıqlarını bildirib və tədbir iştirakçılarına Müdafiə Nazirliyinin rəhbərliyinin təbrikini çatdırıblar.

Türk qaziləri adından çıxış edən Anadolu Aydınlar Ocağının rəhbəri, istefada olan polkovnik, professor İbrahim Öztek Azərbaycan-Türkiyə qardaşlığına həsr etdiyi şeirini oxuyub.

Çıxışlardan sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının, "Səma" rəqs qrupunun və incəsənət ustalarının iştirakı ilə "Bir ürəkdə iki can - Türkiyə-Azərbaycan" adlı ədəbi-bədii proqram təqdim olunub.

Bakının qurtuluşu gününə həsr olunmuş təntənəli mərasimdə Türkiyədən gəlmiş, yaşları 80-90-ı haqlamış türk qaziləri "Yallı" halayına qoşulub, "Nuru Paşa", "Çırpınırdın Qara dəniz", "Qardaşlıq türküsü" mahnılarını ifa ediblər.

Bakının işğaldan azad edilməsinin 101-ci ildönümünə həsr olunmuş təntənəli mərasim Azərbaycan-Türkiyə qardaşlığının nümayişinə çevrilib.

# Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib





Sentyabrın 16-da Daxili İşlər Nazirliyində (DİN) "Mülkiyyət əleyhinə olan cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılması"nın, həmçinin "Polis sahə rəisləri və inspektorları tərəfindən inzibati qanunvericiliyin tətbiqi sahəsində görülmüş işlər"in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin aktuallığını, daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı mühüm istiqamətləri əhatə etdiyini diqqətə çatdırıb. O, müvafiq sahələrdə əməliyyat-xidməti fəaliyyətin məqsədyönlü təşkilinin insan hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin etibarlı qorunması, bütövlükdə vətəndaş məmnunluğunun təmin edilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov və Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov məruzə ilə çıxış edərək əldə edilmiş nəticələrdən, xidməti fəaliyyətdə yol verilmiş nöqsanlardan və onların aradan qaldırılması üçün görüləcək işlərdən danışıblar.

Məruzələr ətrafında ayrı-ayrı şəhər və rayon polis orqanlarının rəisləri çıxış ediblər.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin səkkiz ayında asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub saxlanıldığını diqqətə çatdırıb. O, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 13,8, adam öldürməyə cəhdlərin 18,5, qəsdən sağlamlığa ağır zərərvurmaların 1,8, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 7,5, mülkiyyət əleyhinə olan cinayətlərin 12,2, o cümlədən quldurluqların 7, hədə-qorxu ilə tələb etmələrin 19, dələduzluqların 27 faiz azaldığını, habelə cinayətlərin açılmasının yüksək olduğunu qeyd edib.

Daxili İşlər naziri gündəlikdəki məsələlər üzrə görülən işlərin ümumilikdə qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarında müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu diqqətə çatdıraraq onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib.

İlk növbədə, cari ilin ötən dövründə bir tona yaxın narkotik vasitənin qanunsuz dövriyyədən çıxarıldığını bildirən nazir bu sahədə fəaliyyətin nəticələrinin tam qənaətbəxş olmadığını, antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə icrası zəruri tədbirlər barədə konkret tapşırıqlar verib.

Azərbaycan Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən birinin də vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu xatırladan nazir bütün müraciətlərə operativ baxılıb qanuni qərarların qəbul olunmasının, cinayətlər nəticəsində zərərçəkmiş şəxslərə dəymiş ziyanın istintaq və təhqiqat prosesində ödətdirilməsinin, polisin səlahiyyətinə aid məsələlərlə əlaqədar göstərilən xidmətlərin nümunəvi təmin edilməsinin hər bir orqan rəisinin gündəlik nəzarətində saxlanılmasının vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə nəzərdə tutulan məsul vəzifələrin və qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gələcək, ölkədə sabitliyin və əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcək, daha böyük əzmlə çalışacaq.

# Azərbaycanın gənclər təşkilatlarının nümayəndələri "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, "İrəli" İctimai Birliyi, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası - NAYORA, "Cavan" İctimai Birliyi və digər gənclər təşkilatlarının nümayəndələri Bakının anti-Azərbaycan diktaturasının və erməni quldur daşnak dəstələrinin hakimiyyətindən azad edilməsinin 101-ci ildönümünü Şəhidlər xiyabanında, Qafqaz İslam Ordusu sıralarında Azərbaycanın azadlığı uğrunda şəhid olmuş əsgərlərin xatirəsinə ucaldılmış abidənin önündə qeyd ediblər.

AZƏRTAC xəbər verir ki, gənclər əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəmanların xatirəsini bir dəqiqəlik sükutla ehtiramla yad edib, abidənin önünə əklil və gül dəstələri düzüblər.

Mətbuata müsahibəsində YAP Gənclər Birliyinin sədri Seymur Orucov, NAYORA-nın sədri Məryam Məcidova, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov bu günün xalqımızın və dövlətimizin tarixindəki yerindən danışıb, Bakının və bütünlükdə Azərbaycanın azadlığı, xalqımızın müstəqilliyi, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəmanların xatirəsinin həmişə xalqımız tərəfindən ehtiramla yad edildiyini, sovet təbliğatının bütün cəhdlərinə baxmayaraq, onların heç vaxt unudulmadığını diqqətə çatdırıblar. Ulu Öndərimizin "Bir millət, iki dövlət" fikrini xatırladan natiqlər, bu gün qeyd etdiyimiz əlamətdar tarixin bunun ən bariz nümunələrindən biri olduğunu vurğulayıblar.

Gənclər bu gün Azərbaycan gəncinin qüdrətli, firavan və sabit ölkədə yaşadığını bildirib və buna görə Azərbaycan gəncləri adından Prezident İlham Əliyevə təşəkkür ediblər.

Qeyd edək ki, sentyabrın 15-i Bakının işğaldan azad olunduğu gündür. 101 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Milli Ordusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.

Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürülüb. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verilib.

Türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb olub. Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil edib. Ziyafət indiki Dövlət Filarmoniyasının binasında keçirilib. H.Z.Tağıyev türk ordusunun komandanı Nuru Paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim edib.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid verib.

Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları ziyarət olunur. Hər il Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi önündə anma mərasimi keçirilir.

# Gəncədə Heydər Əliyev Fondu tərəfindən inşa və təmir olunan yeni məktəblər və uşaq bağçası









"Bilik günü" Gəncə şəhərində fəaliyyət göstərən Nizami Aydın adına 18 nömrəli tam orta məktəbin şagirdləri üçün ikiqat bayrama çevrilib. Çünki yeni tədris ilindən onlar təhsillərini müasir məktəb binasında davam etdirəcəklər.

Xatırladaq ki, ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevral ayında Gəncə şəhərinə səfəri zamanı məktəbdə mövcud şəraitlə tanış olmuş, binada yenidənqurma işlərinin aparılmasına dair müvafiq tapşırıq vermişdi.

AZƏRTAC xəbər verir ki, 1965-ci ildən istismarda olan məktəbin binasında sonuncu təmir işləri 1988-ci ildə aparılmışdı və burada əsaslı yenidənqurma işlərinə ehtiyac yaranmışdı. 640 şagird yerlik məktəbdə buna qədər 795 şagird təhsil alırdı.

Görülən işlər çərçivəsində isə məktəbin köhnə binasında əsaslı təmir işləri və mövcud ehtiyac nəzərə alınaraq 280 yerlik yeni korpusun tikintisi həyata keçirilib. Hazırda Azərbaycan və rus bölmələri üzrə fəaliyyət göstərən məktəbdə 1000 şagirdin təhsili üçün şərait yaradılıb.

Yeni məktəb binasında 51 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, əmək otağı, hərbi hazırlıq otağı, idman, akt zalları, kitabxana, müəllimlər otağı, eləcə də tibb otağı, mətbəx və yeməkxana var. Məktəb zəruri inventar və avadanlıqlarla təchiz edilib. Həmçinin ərazidə süni ot örtüklü idman meydançası inşa edilib. Məktəb daimi istilik və su sistemi ilə təchiz olunub, əraziyə asfalt örtüyü salınıb, yaşıllıq zolağı yaradılıb.

Yeni tədris ilində məktəbin kollektivi ilk təbriki də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadan alıb. Birinci vitse-prezidentin təbrikləri və salamları məktəbin kollektivinə çatdırılıb.

Məktəbin müəllimi Ceyran Məmmədova sevincini bu sözlərlə bölüşüb: "Bilik günü"ndə həm müəllim, həm də bir valideyn kimi çox sevincliyəm. Çünki illərdir dərs dediyim məktəbimiz əsaslı təmirdən sonra müəllimlərin və şagirdlərin ixtiyarına verilir. Bu il həm də mənim dörd nəvəm ilk dəfə bu məktəbə qədəm qoyur. Əminəm ki, bu cür müasir tədris şəraitinin yaradıldığı məktəbdə həm nəvələrim, həm də bütün şagirdlər yüksək nəticə göstərəcəklər. Çünki məktəbimizdə bunun üçün hər cür şərait yaradılıb. Burada müasir fənn kabinetləri, sinif otaqları, laboratoriyalar, idman zalı var. Yaradılmış bu gözəl şəraitə görə Mehriban xanım Əliyevaya bütün kollektivimiz adından minnətdarlığımızı bildirirəm".

* * *

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gəncədə daha bir məktəb əsaslı təmir olunaraq yeni tədris ilində şagird və müəllimlərin ixtiyarına verilib. Bu, Gəncə şəhər Samir Vəliyev adına 34 nömrəli tam orta məktəbdir.

1984-cü ildə inşa olunan məktəb binasında bu ilin may ayından əsaslı təmir işləri həyata keçirilib. 640 şagird yerlik məktəbdə zəruri avadanlıqla təchiz edilmiş 36 sinif otağı, laboratoriya, əmək, linqafon otaqları, informatika kabineti, hərbi hazırlıq kabineti, eləcə də məktəbəqədər sinif otağı fəaliyyət göstərir.

Məktəbin şagirdi İlhamə Ələsgərova yeni tədris ilində təhsilini bu cür müasir məktəbdə davam etdirməkdən çox şad olduğunu bildirərək deyib: "Məktəbimizin əvvəlki binası təmirsiz olduğuna görə keyfiyyətli təhsil ala bilmirdik. Xüsusən də ayrı-ayrı fənlər üzrə kabinetlərimiz olmadığına görə dərslərimizi təcrübi deyil, yalnız nəzəri öyrənirdik. Şəhərimizdəki digər məktəblərdə olduğu kimi, bizim də məktəbimizdə müasir şərait yaradılmasını arzulayırdım. Builki tədris ili məktəbimizin müəllim-şagird kollektivi üçün ikiqat sevincli oldu. Artıq bizim də tam müasir məktəbimiz var. İndi biz daha həvəslə oxuyacaq, gələcəkdə ali məktəblərə yüksək balla daxil olmağa çalışacağıq".

Şagird Elvin Səfərov: "Bu gün həm "Bilik günü", həm də məktəbimizin əsaslı təmirdən sonra istifadəyə verildiyi gündür. Hər iki əlamətdar gün münasibətilə məktəbimizin kollektivi çox sevinclidir. Hazırda biologiya kabinetində builki tədris ilində ilk dərsimizi keçirik. İndi bizim biologiya kabineti, eləcə də digər fənn kabinetləri, laboratoriyalar lazım olan bütün avadanlıqlarla, tədris vasitələri ilə təmin olunub. Məktəbimizin müasir idman meydançası və idman zalı bizim həm sağlamlığımıza, həm də idman növləri ilə daha düzgün məşğul olmağımıza şərait yaradacaq.

Bizə bu sevinci yaşatdığına, göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya bütün şagirdlər adından təşəkkür edirik.

* * *

Birinci vitse-prezident Mehriban Əliyevanın fevral ayında Gəncəyə səfəri 32 saylı körpələr evi-uşaq bağçasının da həyatında bir dönüş oldu. Məhz həmin vaxt bu uşaq bağçasının yenidən qurulmasına qərar verildi.

Həmin vaxt Mehriban Əliyevanın diqqətinə çatdırılmışdı ki, 1985-ci ildə inşa edilən binanın əsaslı təmirinə ehtiyac var. Birinci vitse-prezident qısa zamanda bu bağçanın da yenidən qurulmasının, onun maddi-texniki bazasının gücləndirilməsinin vacibliyini vurğulamışdı.

1985-ci ildən fəaliyyət göstərən körpələr evi-uşaq bağçası üçün hazırda Heydər Əliyev Fondu tərəfindən 280 yerlik yeni bina tikilib, bağça inventar və avadanlıqla təchiz olunub və burada 14 qrup yaradılıb. Bağçada yataq otaqları, eləcə də uşaqların təhsili və istirahəti üçün nəzərdə tutulan digər zəruri otaqlar, musiqi, idman zalları inşa olunub. Daimi istilik və su sistemi ilə təchiz olunan bağçanın yerləşdiyi ərazi abadlaşdırılıb, yaşıllıq zonası salınıb. Bu da Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının uğurla icra olunduğunu göstərir.

Valideyn Zenfira Quliyeva bağçada yaradılmış şəraitdən razılığını bildirərək deyib: "Bu ilin fevral ayında nəvəmi bu bağçaya gətirmişdim. Yaxşı xatırlayıram ki, o zaman bağça bərbad vəziyyətdə idi. Təbii ki, elə bir şəraitdə nəvəmin normal təlim-tərbiyə ala bilməyəcəyi məndə və ailəmizin bütün üzvlərində təəssüf hissi doğururdu. Lakin bu gün çox sevincliyəm. Çünki bağça tamamilə yenidən qurulub. Burada balacaların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Otaqlar hər bir avadanlıqla təmin edilib. Bu cür yüksək şərait fidanları çox sevindirir. Biz valideynlər gələcəyimiz olan uşaqlara yaradılan bu şəraitə görə Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk".

# Heydər Əliyev Fondunun dəstəyi ilə Tovuzda yeni məktəb binası tikilib






Tovuz rayonunun Alakol kəndinin məktəbliləri yeni dərs ilini ən müasir standartlara cavab verən tədris ocağında qarşılamışlar. Belə ki, Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilmiş yeni məktəb binası istifadəyə verilmişdir.

Açılış mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov belə gözəl tədris ocağının istifadəyə verilməsini ölkə rəhbəri İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanda gənc nəslin təlim-tərbiyəsinə göstərdikləri qayğının növbəti təzahürü kimi dəyərləndirmişdir. Hazırda fondun yaxından iştirakı ilə Bozalqanlı kənd orta məktəbi üçün 1200 şagird yerlik yeni məktəb binasının tikintisinin aparıldığını, eləcə də Aşağı Quşçu və Köhnəqala kənd məktəblərinin əsaslı şəkildə təmir edildiyini diqqətə çatdıran Məmməd Məmmədov qeyd etmişdir ki, son 3 ildə rayonda 11 modul tipli məktəb binası quraşdırılaraq istifadəyə verilmişdir. Belə müasir məktəb binalarının istifadəyə verilməsi isə söz yox ki, tovuzlular üçün əvəzsiz tohfədir.

Tədbirdə Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədov, kənd ağsaqqalı Alı Əsgərov, məktəbin şagirdi Təhminə Quliyeva, məktəbin adını daşıdığı şəhid Nurəddin Sadıqovun həyat yoldaşı Kifayət Sadıqova və kənd sakini Oktay İsmayılov çıxış edərək məktəbin tikintisində əməyi olanlara minnətdarlıq etmiş, pedaqoji kollektivə, şagirdlərə isə yeni dərs ilində uğurlar arzulamışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qubada yeni inşa olunan 960 şagird yerlik məktəb binası istifadəyə verilib

## Bu il bölgələrdə 84 yeni məktəb binası inşa edilib

Quba rayonunun Alekseyevka kəndində inşa olunan şəhid Rəhman Məmmədov adına 960 şagird yerlik məktəb binası yeni tədris ilinin ilk günündə istifadəyə verilib.





AZƏRTAC xəbər verir ki, Quba Rayon İcra Hakimiyyəti rəhbərliyinin, təhsil işçilərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasimdə Təhsil naziri Ceyhun Bayramov Bilik Günü və məktəb binasının açılışı münasibətilə müəllim və şagirdləri, valideynləri təbrik edib.

Açılış mərasimindən əvvəl nazir Ceyhun Bayramov və Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Məktəbin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsilə göstərdiyi qayğı və diqqətdən danışan nazir ölkəmizdə aparılan təhsil islahatları haqqında məlumat verib. O, yeni məktəb binalarının inşasının təhsilin keyfiyyətinin daha da yüksəldilməsinə əhəmiyyətli təsir edəcəyinə əminliyini vurğulayıb.

"Təkcə bu il ölkəmizdə Dövlət İnvestisiya Proqramı və Prezidentin sərəncamları ilə müxtəlif bölgələrdə 84 yeni məktəb binası inşa edilib. Onlardan 43-ü bu gün istifadəyə verilir. Digər 41 məktəb binasının isə dekabr ayınadək təhvil verilməsi nəzərdə tutulur" deyə nazir qeyd edib.

Bildirilib ki, Azərbaycanda təhsil sahəsində aparılan islahatlar öz müsbət nəticələrini verir. Ölkədə müəllim peşəsinin nüfuzu xeyli artıb. Son illərdə qəbul imtahanlarında yüksək nəticələr göstərən və müəllim peşəsini seçən abituriyentlərin sayında ciddi artım var.

C.Bayramov ölkəmizdə təhsil sahəsinin dövlətin yürütdüyü siyasətin prioritet istiqamətlərindən olduğunu, son illər respublikamızda çoxlu sayda yeni məktəb binalarının tikildiyini, əsaslı təmir olunduğunu söyləyib. Nazir deyib ki, regionlarda, xüsusən ucqar rayonlarda yeni məktəb binalarının tikintisi ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin uğurla davam etdirildiyinin göstəricisidir.

Sonra nazir yeni məktəbdə yaradılmış şəraitlə tanış olub, müəllimlərlə görüşərək onlarla söhbət edib.

Alekseyevka kəndində yeni təhsil ocağının inşasına Prezident İlham Əliyevin sərəncamına əsasən ötən ilin dekabr ayından başlanılıb. Üçmərtəbəli binada 40 sinif, 6 laboratoriya, gənclərin çağırışaqədər hazırlığı, əmək təlimi və kompüter otaqları, idman, akt, oxu zalları, kitabxana və 234 yerlik yeməkxana var.

Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz edilib. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də tikilib.

Rəhman Məmmədov adına Alekseyevka kənd tam orta məktəbində hazırda 900-ə yaxın şagird təhsil alır. Təhsil ocağında tədris Azərbaycan və rus dillərində aparılır. Dörd min nəfərdən çox sakini olan Alekseyevka Qubanın ən böyük kəndlərindən sayılır.

Onu da qeyd edək ki, dünən Qubada daha 8 modul tipli məktəb binası istifadəyə verilib.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycanda bir milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb"

Son 5 ildə ölkəmizdə 600 məktəb binası inşa olunub. On beş ildə tikilən və əsaslı təmir olunan təhsil müəssisələrinin sayı isə 3 min 200-dən çoxdur. Bu da Azərbaycanda ümumilikdə bir milyondan çox şagirdin təlim şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşması deməkdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Təhsil naziri Ceyhun Bayramov Quba rayonunun Alekseyevka kəndində inşa olunan 960 şagird yerlik məktəb binasının açılış mərasimində jurnalistlərin suallarını cavablandırarkən məlumat verib.

Nazir bildirib ki, Azərbaycanda təhsil müəssisələrinin infrastrukturunun yaxşılaşdırılması, maddi-texniki bazanın müasirləşdirilməsi Prezident İlham Əliyevin daim diqqətində olan əsas məsələlərdəndir.

"Dövlət İnvestisiya Proqramı və Prezidentin imzaladığı sərəncamlara əsasən, 2019-cu ildə 84 məktəb binasının tikintisi və ya əsaslı təmiri nəzərdə tutulmuşdu. Həmin binalardan 43-ü Bilik Günündə istifadəyə verilir. Digər 41 məktəb binasının isə dekabr ayınadək təhvil verilməsi nəzərdə tutulur. Məktəb quruculuğu, təhsil müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsindən danışarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xüsusi qayğısını və təşəbbüsləri ilə həyata keçirilən işləri də qeyd etməliyəm. Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun xətti ilə onlarla məktəb binasının inşası həyata keçirilir. Onlardan bir hissəsi artıq tədris ilinin əvvəlində istifadəyə verilib" deyə Təhsil naziri Ceyhun Bayramov söyləyib.

# Müəllim nüfuzunun yüksəldilməsi ən böyük uğurdur

## Son illər müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində nailiyyətlər əldə edilib

Hər bir ölkənin inkişafında, vətənə layiqli və savadlı kadrların, mütəxəssislərin yetişdirilməsində müəllimlərin xüsusi rolu var. Təhsil islahatının uğurla aparıldığı ölkələrdə müəllim fəaliyyətinin stimullaşdırılması və peşəkarlığının inkişafına xüsusi diqqət yetirilir.

Təsadüfi deyil ki, ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında tədrisin keyfiyyətinin yaxşılaşdırılması üçün müəllim peşəsinin nüfuzunun artırılmasının zəruriliyi xüsusi vurğulanıb. 5 strateji istiqamətdən biri kimi "Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması" müəyyənləşdirilib. Son illərdə təhsil sahəsində əldə edilən ən böyük uğurlar müəllim nüfuzunun yüksəldilməsi ilə bağlı olub, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, istedadlı insanların bu peşəyə cəlb edilməsi istiqamətində nailiyyətlər əldə edilib.

Ötən tədris ilində ümumtəhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi uğurla başa çatdırılıb, ümumilikdə 150 mindən çox müəllimin həftəlik dərs yükü 1.5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb. Müəllimlərin fəaliyyətinin stimullaşdırılması tədbirləri davamlı xarakter alıb, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, müəllimlərin aylıq vəzifə maaşları cari il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılıb və beləliklə, orta aylıq əməkhaqqı 600 manata çatıb. Bu dəyişiklikdən sonra aylıq əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı təxminən 5000 nəfər təşkil edib.

### Ucqar kənd məktəblərinin kadr təminatı problemi həll edilib

Ötən tədris ilində 10 minədək müəllim işə qəbul olunub, vakant yerlərin 100 faiz tutulması təmin edilib, uzun illər ərzində ixtisaslı kadrlara ehtiyacı yaranan ucqar kənd məktəblərinin kadr təminatı problemi, demək olar ki, həll edilib. Ümumilikdə son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub. Hökumətin qərarına əsasən, kənd məktəblərində fəaliyyətə başlayan gənc müəllimlər üçün stimullaşdırıcı tədbirlər tətbiq edilib, ümumilikdə 10 mindən çox müəllim bu tədbirlərdən faydalanıb. Bütün bu tədbirlər cəmiyyətdə işə qəbulun şəffaflığına və obyektivliyinə inam formalaşdırıb, cari ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən 3 dəfədən çox artıb, müraciət edənlərin sayı təqribən 55 min olub. İlkin mərhələdə 3260 müəllim işə qəbul olunub. Növbəti mərhələdə daha 4500 vakant yerə qəbulla bağlı tədbirlər həyata keçirilməkdədir.

Müsabiqədə iştirak edən gənc müəllimlər Təhsil Nazirliyi tərəfindən təşkil edilən işə qəbul sistemini yüksək qiymətləndirirlər. Belə ki, cari ildə ən yüksək nəticə göstərərək 60 bal toplayan Gülnar Hümbətova və Süsən Məmmədova müsabiqənin çox şəffaf keçirildiyini, iştirakçıların maksimum nəticə əldə etmələri üçün bütün lazımi şəraitin yaradıldığını, 58 bal toplayan Sara Xəlilova müəllimlərin bu formada işə qəbulunun çox əhəmiyyətli olduğunu, 55 bal toplayan Turanə Kərimova müsabiqədə Azərbaycan məktəblərinə ən yaxşı müəllimlərin seçildiyini qeyd edib.

### Cari ildə 500-dən çox bal toplayanlardan 25 faizi müəllimlik ixtisasını seçib

Həyata keçirilən kompleks tədbirlər nəticəsində müəllimlik rəqabətli bir peşəyə çevrilib, ən yüksək nəticə göstərən abituriyentlər arasında bu ixtisası seçənlərin sayı dəfələrlə artıb. 2018-ci ildə 500-dən yuxarı bal toplayan abituriyentlər arasında müəllimlik ixtisasını seçənlərin sayı strategiyanın icrasına başlanılan ilin eyni göstəricisindən 2,3 dəfə çox olub. Xüsusi qeyd edilməlidir ki, cari ildə 500-dən çox bal toplayanlardan hər 4 nəfərdən biri və ya 25 faizi müəllimlik ixtisasını seçib. Yüksək bal toplayanların seçdikləri ixtisaslar üzrə təhlil göstərir ki, ötən ilə nisbətən Azərbaycan dili və ədəbiyyat müəllimliyi üzrə artım 43 faiz, xarici dil müəllimliyi üzrə 20 faiz, tarix müəllimliyi üzrə 14 faiz artım olub. Bu il 500-dən çox bal toplayanlardan 547 nəfər Azərbaycan Dillər Universitetinə, 513 nəfər Bakı Dövlət Universitetinə, 363 nəfər Azərbaycan Dövlət Pedaqoji Universitetinə, 95 nəfər Gəncə Dövlət Universitetinə, 79 nəfər Naxçıvan Dövlət Universitetinə qəbul olunub. Bu amil müəllim hazırlığı sistemində əsaslı dönüşün yaradılmasına, yüksək peşəkarlığa malik müəllimlərin hazırlanmasına və məktəblərə cəlbinə imkan verəcək.

Son illərdə müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində sistemli tədbirlər həyata keçirilib. Beynəlxalq təcrübə nəzərə alınmaqla, ümumtəhsil müəssisələrinin pedaqoji heyəti üçün modul-kredit və rəqabətəsaslı təlimlər sistemi tətbiq edilib, 2015-2018-ci illərdə ümumilikdə 55 min nəfər müəllim modul-kredit sisteminə əsaslanan təlimlərə cəlb edilib ki, onların 25 mini 2018-2019-cu tədris ilinin payına düşür. Cari tədris ilində daha 30 min müəllimin təlimlərə cəlb edilməsi planlaşdırılır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbi yeni tədris ilinə uğurla başlayır

Bakı Ali Neft Məktəbində (BANM) 2019/2020-ci tədris ilinin başlanması münasibəti ilə "Bilik Günü"nə həsr olunmuş təntənəli tədbir keçirilib.





Tədbirdə SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayev, SOCAR-ın vitse-prezidentləri, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, o cümlədən Azərbaycanda fəaliyyət göstərən bir çox yerli və transmilli şirkətlərin rəhbərləri, Bakı Ali Neft Məktəbinin professor-müəllim heyəti, tələbələr və onların valideynləri iştirak ediblər.

Dövlət himni səsləndikdən sonra çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qonaqları salamlayaraq, 2019/2020-ci tədris ilində yüksək balla BANM-in tələbəsi adını qazanmış gəncləri və onların valideynlərini yeni tədris ili münasibəti ilə təbrik edib. Bakı Ali Neft Məktəbinin qısa zamanda əldə etdiyi uğurlar, görülən işlər və perspektivlər haqqında danışan rektor Elmar Qasımov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında" sərəncamına əsasən, Bakı Ali Neft Məktəbinin 23 tələbəsi Prezident təqaüdünə layiq görülüb. Rektor qeyd edib ki, ali məktəbin yarandığı ildən bugünə qədər Prezident təqaüdçülərinin sayı 150 nəfərə çatıb. O, bu il ali məktəb üzrə 11 nəfərin 680-dən çox bal topladığını, yarandığı ildən indiyədək isə BANM-in 26 tələbəsinin 700 bal toplayaraq ölkə üzrə rekorda imza atdığını vurğulayıb.

Rektor həmçinin qeyd edib ki, bu il ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarının ixtisas seçimi nəticəsində Bakı Ali Neft Məktəbinin 2 ixtisası - informasiya təhlükəsizliyi - 673,5 bal, proseslərin avtomatlaşdırılması mühəndisliyi - 657,8 bal olmaqla növbəti dəfə ölkə universitetləri arasında ən yüksək keçid balı olan ixtisaslar olub.

Elmar Qasımov I qrup üzrə keçirilmiş test imtahanlarında ən yüksək bal toplayan tələbələrin BANM-i seçməsinin artıq ənənə halını almasını xüsusi vurğulayıb.

Tədbirdə çıxış edən SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayev ali məktəbin kollektivini, tələbələri və valideynləri yeni tədris ilinin başlanması münasibəti ilə təbrik edib. O, bildirib: "Bakı Ali Neft Məktəbi cəmi 7 ildir fəaliyyət göstərir. Bu qısa müddətdə dinamik inkişafı və uğurları ilə layiqli yer tutmuş, ölkə gənclərinin dərin hüsn-rəğbətini qazanmışdır".

Milli Məclis sədrinin müavini Bahar Muradova bildirib ki, son illər ölkəmizdə təhsil sistemində əldə edilən uğurlar təhsilverənlərin peşəkarlığı ilə yanaşı, Azərbaycan dövlətinin iqtisadi imkanlarının artmasının, regionda və dünyada mövqeyinin möhkəmlənməsinin nəticəsidir.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc təhsil sistemində tətbiq edilən innovasiyalar sayəsində bu gün Bakı Ali Neft Məktəbi kimi yüksək infrastruktura malik və keyfiyyətli tədris metodu ilə seçilən ali təhsil müəssisəsinin fəaliyyət göstərdiyini qeyd edib.

Dövlət İmtahan Mərkəzinin (DİM) 2019/2020-ci tədris ili üzrə keçirilən qəbul imtahanında I qrup üzrə ən yüksək bal (690.5 bal) toplayan BANM-in "İnformasiya təhlükəsizliyi" ixtisasını seçən Əsmər Hacızadə bildirib ki, əsas məqsədi ixtisası üzrə peşəkar mütəxəssis kimi ölkəmizə faydalı olmaqdır.

Bakı Ali Neft Məktəbi və BMT-nin Təlim və Tədqiqatlar İnstitutunun proqramı əsasında həyata keçirilən "Nigeriyanın neft və qaz sənayesində kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində BANM-ə qəbul olmuş nigeriyalı tələbə Somtoçukvu Çidinma Azərbaycan dilində tədbir iştirakçılarını salamlayıb, bu ali məktəbdə təhsilə başlamasından həyəcan duyduğunu qeyd edib.

Bu il əkiz oğlanları Bakı Ali Neft Məktəbinin neft-qaz mühəndisliyi ixtisasına qəbul olan Namiq Azadlı çıxış edərək, oğlanları Rəşad və Rəşidlə yanaşı yüksək bal toplamış bütün gənclərə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkür edib.

Məzunlar adından çıxış edən 2019-cu il kimya mühəndisliyi məzunlarından, hazırda SOCAR-ın Türkiyədə istehsalat mühəndisi vəzifəsində çalışan Orxan Əlizadə Bakı Ali Neft Məktəbinə və sevimli müəllimlərə minnətdarlıq edərək, onların BANM-ə yeni qəbul olunan tələbələrin layiqli kadrlar kimi yetişməsində əvəzsiz rolunu qeyd edib.

Sonra 2019/2020-ci tədris ilində Bakı Ali Neft Məktəbinə qəbul olunmuş tələbələrin hər birinə tələbə vəsiqələri təqdim olunub.

***"Azərbaycan"***

# Yeni hədəflərə doğru

## Bahar MURADOVA: "Prezident İlham Əliyevin diqqət və qayğısı ilə təhsil sisteminin bütün pillələri üzrə dövlət proqramları yüksək səviyyədə həyata keçirilir"

Dünən dərs ilinin başlanması münasibətilə Hədəf STEM liseyində elm, inkişaf, tərəqqi rəmzi olan Bilik Günü qeyd edildi. Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə yeni tədris ilində qarşıya qoyulan məqsədlərdən, təhsil sahəsində aparılan islahatlardan, məktəb məzunlarının qəbul imtahanlarındakı uğurlarından bəhs edildi.





Hədəf liseyinin qurucu direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadiq qeyd etdi ki, Prezident İlham Əliyevin təhsilin inkişafı və müasirləşməsi strategiyasını fəaliyyətində əsas götürən lisey STEM konseptinə - elm, texnologiya, mühəndislik və riyaziyyat disiplinlərinin qarşılıqlı əlaqədə və "toxunaraq öyrənmək" prinsipinə əsaslanır. Milli və mütərəqqi beynəlxalq kurikulumların inteqrasiyasından ibarət olan Hədəf konseptinin məqsədi yaxın gələcəyin milli və bəşəri dəyərlərini mənimsəmiş sağlam, bacarıqlı, yaradıcı və bilikli insanını yetişdirməkdir. Şəmil Sadiq bildirdi ki, liseyin şagirdləri burada yaradılan imkanlardan maksimum yararlanıb Azərbaycanın işıqlı sabahı üçün çalışacaq, bacarıqları, bilikləri ilə ölkəmizə, bəşəriyyətə böyük fayda verəcəklər.

Daha sonra çıxış edən Milli Məclisin Sədr müavini, Yeni Azərbaycan Partiyasının idarə heyətinin üzvü Bahar Muradova liseyin müəllim və şagirdlərini salamlayıb yeni tədris ilində hər kəsə uğurlar arzuladı: "Bu liseyin darvazasından girəndən etibarən tam fərqli bir məkan - mətbuatdan, sosial şəbəkədən eşitdiyimdən, öyrəndiyimdən, təsəvvür etdiyimdən daha gözəl, daha işıqlı və daha inamlı bir mənzərə gördüm. Burada tamamilə fərqli bir təhsil konsepti, fərqli yanaşma var. Bu fərqliliyin içində milli dəyərlərə sadiqliyi gördükdə isə çox sevindim".

Bahar Muradova vurğuladı ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çox böyük inamla irəliyə doğru addımlayır. Milliyyətindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir kəs azərbaycançılıq məfkurəsinə sadiq olmalı, oxumalı, faydalı iş görməli və firavan yaşamalıdır: "Nə qədər ki sabaha inamlı, ən müasir yeniliklərə açıq insanlarımız var, Azərbaycan inkişafda olacaq. Əminəm ki, sizlərin ardınca bu ordu getdikcə böyüyəcək və Azərbaycana layiqli xidmət edəcək".

Milli Məclis Sədrinin müavini Prezident İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğıdan, təhsil sahəsində qazanılan uğurlardan söz açaraq qeyd etdi ki, son illər Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Bu gün təhsil sisteminin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. İstər məktəbəqədər, istərsə də ümumi və ali təhsilin inkişafı istiqamətində həyata keçirilən islahatlar sayəsində təlim-tədris şəraiti daha da yaxşılaşdırılır. Bu da, öz növbəsində, təhsilin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına zəmin yaradır.

Sonra tədbir liseyə ilk qədəmlərini qoyan birincilərin hazırladıqları təbrik şeirləri və idman rəqsləri ilə davam etdi. Tədbirin sonunda liseyin andı içildi. Millət və dövlət üçün layiqli övlad olacaqlarına and içən şagirdlər bəşəriyyətə fayda verəcəklərinə, bayrağımızı şərəflə dalğalandıracaqlarına söz verdilər. "Hədəf himni"nin sədaları altında liseyin mühəndislərinin hazırladıqları dron vasitəsilə zınqırov səmaya qaldırıldı və birincilərə təqdim edildi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində Bilik Günü qeyd edilib

Yeni tədris ilinin başlanması münasibətilə Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təntənəli mərasimlər keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə nazirinin tapşırığına əsasən vəzifəli şəxslər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olublar.

Müdafiə Nazirliyinin rəhbər heyətinin, tədris müəssisələrinin rəislərinin, professor-müəllim və şəxsi heyətin iştirakı ilə keçirilən təbirlərdə Ulu Öndər Heydər Əliyevin və vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub. Yeni tədris ilinin başlanması ilə əlaqədar şəxsi heyətə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı və Birinci vitse-prezidentin təbrikləri çatdırılıb.

Mərasimlərdə çıxış edənlər ölkə başçısının təhsil sisteminin inkişafına göstərdiyi qayğını xüsusi vurğulayaraq hərbi təhsilə ciddi diqqət yetirildiyini bir daha qeyd edib, yeni tədris ilinin başlanması münasibətilə şəxsi heyətə təhsildə uğurlar arzulayıblar.

Tədbirlərdə kursantların hazırlıq səviyyəsinin artırılması, nizam-intizamın və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi istiqamətində xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərliyinə Müdafiə nazirinin müvafiq tapşırıq və tövsiyələri çatdırılıb.

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Qazaxda vətəndaşları qəbul edib

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova sentyabrın 16-da Qazax rayonunda vətəndaşların qəbulunu keçirib.

Komitədən AZƏRTAC-a verilən məlumata görə, qəbulda Qazax, Ağstafa, Tovuz rayonlarından olan sakinlər iştirak ediblər. Qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlərə, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərə baxılıb. Eyni zamanda bu rayonlardan olan vətəndaşların müraciətləri dinlənilib, hər bir vətəndaşın sualları fərdi qaydada cavablarla təmin edilib, müraciətləri qeydə alınıb. Vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

# İlk zəngin sevincli anları









Bu da müəllim və şagirdlərin, xüsusən də ilk dəfə məktəb yollarına ayaq basan, çantası özündən böyük olsa da, onu daşımaqla qürur duyan "birincilər"in, eləcə də onların valideynlərinin intizarla gözlədiyi Bilik Günü...

Məktəb axı onlarla canlanır. Axı məktəbin "gül-çiçəkləri" də burada deyib-gülür, şənlənir...

Paytaxt Bakının bir-birindən yaraşıqlı, geniş sinif otaqlı, hər cür şəraiti olan məktəbləri az deyil. Onlardan biri də Yasamal rayonunda uzun illər fəaliyyət göstərən 20 nömrəli tam orta məktəbdir.

***Foto Ağaəli MƏMMƏDOVUNDUR***

# Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb

*Əvvəli 1-ci səh.*

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 20-dək davam edəcək təlimlərə 10 min nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.







# Təlimlərə cəlb edilən qoşunlar cəmləşmə rayonlarını tuturlar

Genişmiqyaslı təlimlərin keçirilməsi planına uyğun olaraq, "Həyəcan" siqnalı ilə qaldırılan qoşunların hərəkəti və idarə edilməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə qoşunlar cəmləşmə rayonlarını tutur və qruplaşmalar yaradılır. Qoşunların komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunur.







## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Dövlət Radiotezliklər İdarəsi" tərəfindən "Azərbaycan" qəzetinin 08 may və 25 iyul 2019-cu il tarixli sayında elan edilmiş bir ədəd Pikap tipli avtomobilin satın alınması prosedurunun qalibi "Daimond Motors" MMC müəyyən edilmişdir.

Dövlət Radiotezliklər İdarəsi və "Daimond Motors" MMC arasında 04.09.2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Dövlət Radiotezliklər İdarəsi" tərəfindən "Azərbaycan" qəzetinin 19.06.2019 və 03.07.2019-cu il tarixli nömrələrində dərc edilmiş "Xüsusi loqolu markaların, kitabların və digər tanıtım məhsullarının satın alınması" üzrə açıq tenderin davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Dövlət Radiotezliklər İdarəsi" tərəfindən "Azərbaycan" qəzetinin 23 aprel və 07 may 2019-cu il tarixli sayında elan edilmiş yeni kartriclərin alınması və dolumu, printerlərə texniki xidmətin satın alınması prosedurunun qalibi "Caspian Supplies AZE" MMC müəyyən edilmişdir.

Dövlət Radiotezliklər İdarəsi və "Caspian Supplies AZE" MMC arasında 140451,41 (bir yüz qırx min dörd yüz əlli bir manat 41 qəpik) manat məbləğində 18.07.2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin (CASCO) sığortası üzrə elan edilmiş açıq tenderdə əsas vəsaitlərin sığortası üzrə "Ata Sığorta" ASC, nağd pulun sığortası üzrə "Paşa Sığorta" ASC, nəqliyyat vasitələrinin (CASCO) sığortası üzrə isə "Qala Sığorta" ASC qalib elan edilmişdir. Qalib şirkətlərlə satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Tovuz Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibat işlərinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**LOT 1 - Tovuz Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibat işləri**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, mövzu ilə bağlı peşəkar kadrların mövcudluğu, analoji işlərdə azı 3 il təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, peşəkar və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (Əlaqələndirici şəxs: Şahbazov Şahin, əlaqə nömrəsi: 012 493-05-24)** ala bilərlər.

**İştirak haqqı: 250 manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu : 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11.10.2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **18.10.2019-cu il saat 17:00-a qədər, AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **21.10.2019-cu il saat 14:00-da AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

e-mail: **muzeyinfo@gmail.com**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Vergilər Nazirliyi "Azərbaycan" qəzetinin 27.07.2019-cu il tarixli 162 (8185) sayında dərc edilmiş elanlarla əlaqədar bildirir ki, keçirilmiş açıq tenderlərin nəticələri üzrə 12 sentyabr 2019-cu il tarixdə "Simplex" QSC MMC (VÖEN: 2601600121) ilə dəftərxana mallarının satın alınmasına dair 915 585,68 manat, təsərrüfat mallarının satın alınmasına dair 365 027,06 manat və kartriclərin satın alınmasına dair 319 906,85 manat məbləğində satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı "DOST" Mərkəzi aşağıdakı malların ayrı-ayrılıqda kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir:
1. Yumşaq inventarın və xüsusi geyimlərin satın alınması
2. Digər maşın və avadanlıqların satın alınması

Maraqlanan təşkilatlar +99412 525-50-26 (daxili: 9308) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 19 sentyabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Dövlət Radiotezliklər İdarəsi" tərəfindən "Azərbaycan" qəzetinin 23 aprel və 07 may 2019-cu il tarixli sayında elan edilmiş Nəqliyyat vasitələrinə illik servis xidmətinin satın alınması prosedurunun qalibi "ŞƏRQ MOTORS" MMC müəyyən edilmişdir.

Dövlət Radiotezliklər İdarəsi və "ŞƏRQ MOTORS" MMC arasında 124 635,14 (bir yüz iyirmi dörd min altı yüz otuz beş manat 14 qəpik) manat məbləğində 18.07.2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## ABŞ-da "General Motors"un zavodlarında ümummilli tətil keçirildi




"General Motors" zavodlarının işçiləri dünən ümummilli tətil elan etmişlər. Bu, ABŞ avtomobil sənayesi işçilərinin həmkarlar ittifaqının (UAW) son 12 il ərzində keçirdiyi ən böyük tətildir.

Tətilə həmkarlar ittifaqının 49 mindən çox işçisi çıxmışdır. İşçilər ABŞ-ın doqquz ştatında 33 istehsal müəssisəsini, həmçinin 22 paylaşdırıcı anbarı bağlamışlar.

Həmkarlar ittifaqı ilə şirkət arasında əsas problemlərdən biri "General Motors"un noyabrda ABŞ-da dörd zavodu bağlamaq qərarıdır. UAW bu qərara qarşı çıxır, eyni zamanda fəhlələrin əməkhaqqını qaldırmağa, şirkət xərclərini azaltmağa çalışanda işçilər üçün daha çox məşğulluq zəmanətinə və güzəştlərə nail olmaq istəyir.

## Suriyanın şimalında terror aktı 12 nəfərin həyatına son qoydu



Suriyanın şimal sərhədinin yaxınlığında, "Fərat qalxanı" əməliyyatından sonra Türkiyənin nəzarət etdiyi Rai şəhərində terror aktı törədilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Agentliyin məlumatına görə, yerli xəstəxananın binasının yanında minalanmış avtomobil partlamışdır. Partlayış nəticəsində azı 12 nəfər həlak olmuş, onlarla adam, o cümlədən uşaqlar yaralanmışdır.

Xəstəxananın binası qismən dağılmışdır. Axtarış-xilasetmə işləri davam edir.

## KXDR ABŞ-la yaxınlaşmağın şərtini açıqladı



ABŞ-la Şimali Koreyanın yaxınlaşması, yaxud düşmənçilik münasibətlərinə qayıdış Vaşinqtonun danışıqlara hansı təkliflə gələcəyindən asılıdır. Bu bəyanatla KXDR Xarici İşlər Nazirliyi çıxış etmişdir.

Bəyanatda deyilir ki, tərəflər bir neçə həftə ərzində danışıqlara başlaya bilərlər. KXDR xarici siyasət idarəsi ümidvar olduğunu bildirmişdir ki, danışıqlar dostluq ab-havasında keçəcək.

Xatırladaq ki, Şimali Koreyanın nüvəsizləşdirilməsi problemi üzrə ABŞ-la KXDR arasında danışıqlar hələlik nəticəsiz qalır. İki ölkənin liderləri bu ilin fevral və iyununda görüşmüş, amma bundan irəli gedə bilməmişlər.



## İran nüvə sazişi çərçivəsində öhdəliklərini daha da azaldacaq

Tehran İranın nüvə proqramı üzrə beynəlxalq saziş çərçivəsində öhdəliklərini azaltmağın dördüncü mərhələsini hazırlayır. İRNA agentliyinin xəbərinə görə, bu barədə İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Abbas Musəvi məlumat vermişdir.

Musəvi qeyd etmişdir ki, öhdəliklərin azaldılmasının üçüncü mərhələsi hazırda icra olunur, dördüncü mərhələ isə hazırlanır. O, əlavə etmişdir ki, nüvə proqramı çərçivəsində İranın hüquqları ilə öhdəlikləri arasında tarazlığa riayət edilincə Tehran nüvə sövdələşməsinə sadiq qalacaq, İranın müqavilədə qalması onun maraqlarına cavab verməyəndə zəruri addımlar atılacaq.

Xatırladaq ki, Tehran sentyabrın 6-da nüvə sazişi çərçivəsində öhdəliklərini azaltmağın üçüncü mərhələsinə başlamışdır. Bu mərhələnin gedişində ölkə nüvə tədqiqatlarına qoyulmuş məhdudiyyətlərə riayət etməyə son qoymuşdur. İran tərəfinin bəyanatına görə, buna səbəb sazişin avropalı iştirakçılarının öz vədlərinə əməl etməməsidir.

## Vilnüsdə svastika qalmaqalı davam edir

Ötən gecə Vilnüsdə yəhudilərin binası qarşısında naməlum şəxslər tərəfindən torpaqla çəkilmiş svastika təsviri ilə bağlı qalmaqal davam edir. AZƏRTAC xəbər verir ki, Litva polisi bu hadisəni ciddi nəzarətə götürüb. Yəhudi icmasının rəhbəri Faina Kuklyanski bildirib ki, Litvada çoxdandır antisemitizm əlamətləri yox idi. Bu hadisə ölkədəki yəhudilərlə litvalıları qarşıdurmaya sövq etmək məqsədi daşıyır, lakin təşkilatçılar heç nəyə nail olmayacaqlar. Qeyd edək ki, bir həftədən sonra Litvada yəhudi qırğını qurbanlarının yad edilməsi mərasimi keçiriləcək.



## Ermənistan ordusu iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


## "Bakcell" abunəçilərinin nəzərinə

"Bakcell" MMC abunəçilərinin nəzərinə çatdırır ki, 27 sentyabr 2019-cu il tarixdən etibarən şirkətin "DaimOnline" tariflərində aşağıdakı dəyişikliklər tətbiq ediləcək:

"DaimOnline 6" tarifi çərçivəsində abunəçilərə hər ay verilən 2 GB internet əvəzinə 3 GB internet trafiki veriləcək. Həmin tarifdə limitsiz "WhatsApp" istifadəsi yalnız mətn mesajlarına şamil ediləcək.

"DaimOnline 10" tarifi çərçivəsində sosial media üçün nəzərdə tutulmuş internet həcmi 5 GB təşkil edəcək və abunəçilərə hər ay 100 şəbəkədaxili dəqiqə veriləcək.

"DaimOnline 20" tarifi ləğv edilərək cari abunəçilər "DaimOnline 10" tarifinə keçiriləcək. Bütün dəyişikliklər barədə ətraflı məlumat abunəçilərə SMS vasitəsilə göndəriləcək və *www.bakcell.com* internet səhifəsinə yerləşdiriləcək.


### Düzəliş

"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı "DOST" Mərkəzinin 14.09.2019-cu il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş kotirovka elanı ləğv olunur.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmlak Məsələləri Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin əməkdaşı Nazim Məmmədova atası

**SULTAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin professor-müəllim heyəti fakültənin Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi kafedrasının dosenti Nərminə Allahverdiyevaya bacısı

**İNTİZAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9033
Sifariş 3083
Qiyməti 40 qəpik